QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 176 (5407) 29 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanın hərtərəfli inkişafına beynəlxalq qiymət...

*Yaxud Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşıb*



Səh 5

"Hərbi texnikanın Türkiyədən alınması bizim gücümüzü daha da artırır"



2

Aydın Mirzəzadə: "Belə bəyanatlar Azərbaycanla Avropa Şurası arasında soyuq münasibətlərə səbəb ola bilər"



4

Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edən şəxslər barədə cinayət işi başlanıb



8

Azərbaycanın beynəlxalq reytinqlərdə irəliləməsi ölkəmizdə həyata keçirilən uğurlu islahatların göstəricisidir



9

"Azərbaycanın reytinqdə yüksəlməsi həyata keçirilən iqtisadi islahatlarla əlaqədardır"



4

"Türkiyə dövləti Dağlıq Qarabağa qanunsuz səfər etmiş şəxslər barəsində ən ciddi tədbirlər görməlidir"



9

8

Bəhruz Quliyev: "Azərbaycan qısa zaman kəsimində daha böyük uğurlara imza atmaq gücündədir"



8

Musa Qasımlı: "Avropa Şurasının bu üslubu ikili standartların göstəricisidir"



16

"Qarabağ" - "Roma" oyunu azarkeş sayına görə birinci olub



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

29 sentyabr 2017-ci il

# "Hərbi texnikanın Türkiyədən alınması bizim gücümüzü daha da artırır"

*Prezident İlham Əliyev Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkiyə Respublikasının milli müdafiə naziri Nurəddin Caniklinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Nurəddin Caniklini Türkiyə Respublikasının milli müdafiə naziri kimi yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev, eyni zamanda, Nurəddin Caniklinin yeni vəzifəyə təyin olunduqdan sonra qısa müddət ərzində Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edərək bildirdi ki, ölkələrimiz qardaş ölkələrdir və ona görə də Azərbaycan və Türkiyə nazirləri ilk səfərlərini qardaş ölkələrə edirlər. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə çox yaxşı əməkdaşlığın və iş birliyinin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev hərbi-texniki sahədə birgə fəaliyyətin geniş olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, hərbi texnikanın Türkiyədən alınması bizim gücümüzü daha da artırır. Həm Azərbaycanda, həm də Türkiyədə tez-tez birgə hərbi təlimlərin keçirilməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, bu, Türkiyə-Azərbaycan birliyini daha da gücləndirir və bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsi işinə xidmət edir.

Milli müdafiə naziri Nurəddin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nurəddin Canikli öz növbəsində Azərbaycan ilə Türkiyənin qardaş ölkələr olduğunu və əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bildirdi ki, məqsədimiz bu əməkdaşlıq əlaqələrini daha da genişləndirmək və möhkəmləndirməkdir. Nurəddin Canikli Türkiyənin FETÖ ilə mübarizəsinə ölkəmizin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev bu yaxınlarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Nyu-Yorkdakı görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidentini və baş koordinatorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidenti Mario Davidi və qurumun Avrasiya, Asiya-Sakit okean ölkələri üzrə baş koordinatoru Sezar Rosselonu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Mərkəzçi Demokrat İnternasionalı ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və inkişaf perspektivləri müzakirə edildi, Azərbaycanda son vaxtlar həyata keçirilən islahatlar, atılan addımlar, ölkəmizdə tolerantlıq və multikulturalizm sahəsində aparılan işlər ətrafında fikir mübadiləsi aparıldı.

## İlham Əliyev: "Rusiya-Azərbaycan Regionlararası Forumu iki ölkə arasında dialoqun genişləndirilməsinə mühüm töhfə verir"

***Azərbaycanın və Rusiyanın dövlət qurumları rəhbərlərinin, işgüzar dairələrin və aparıcı ekspert ictimaiyyətinin nümayəndələrinin illik görüşləri xoş ənənəyə və ölkələrimizin həyatında əlamətdar hadisəyə çevrilib. Trend-in məlumatına görə, bu barədə Prezident İlham Əliyev Stavropol şəhərində keçirilən VIII Rusiya-Azərbaycan Regionlararası Forumunun iştirakçılarına müraciətində bildirib. Müraciəti Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev oxuyub.***

Müraciətdə qeyd olunur: "Bu gün tamamilə aydındır ki, regionlararası forumlar qarşılıqlı maraqları göstərən aktual məsələlərin müzakirə olunduğu nüfuzlu meydan qismində möhkəmlənə bilib. Əlamətdar haldır ki, diqqət mərkəzinizdə hər zaman ticarət-iqtisadidən tutmuş humanitar sahəyədək əməkdaşlığın prioritet istiqamətləri yer alır. Bu forumlarda qarşılıqlı fəaliyyətin əsas aspektləri nəzərdən keçirilir, müqavilələr və sazişlər imzalanır, biznes layihələri təşviq edilir, gələcək təşəbbüslər üçün əlaqələr yaradılır. Şübhəsiz ki, bütün bunlar iki ölkə arasında konstruktiv dialoqun gələcəkdə genişləndirilməsinə mühüm töhfə verir, yeni perspektivlər və imkanlar yaradır, Azərbaycan-Rusiya əlaqələrinə yeni təkan verir.

Əminəm ki, cari işgüzar proqram çərçivəsində yeni ideyalar və birgə layihələrimiz meydana çıxacaq və onların reallaşdırılması Azərbaycan və Rusiya arasında qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsi işində daha bir addım olacaq. Sizə uğurlu və səmərəli iş arzulayıram!"

# Yeni əsrin müqaviləsi: təhlükəsizliyin və sürətli inkişafın qarantı

## Prezident İlham Əliyev: "Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək"

***Dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanıb və 1848-ci ildə Bakıda Bibiheybət yatağında qazılmış quyudan püskürən neft fontanı ölkəmizdə "qara qızıl"ın sənaye üsulu ilə çıxarılmasının əsasını qoyub. 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci olub və dünya neft hasilatının yarısını verib. 1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr məsafədə o zaman üçün nadir yataq sayılan Neft Daşlarında vuran fontan dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanğıcını qoyub. Azərbaycan dünyada, ilk dəfə olaraq, açıq dənizdə neft çıxarmağa başlayıb.***

Bir fakt da bəllidir ki, xalqımız yalnız XX əsrin sonlarında, müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanıb. Bu imkanı isə Ulu Öndər Heydər Əliyevin dühası reallığa çevirib.





Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyyətlər, özbaşınalıq böyük neft şirkətlərini Azərbaycandan çəkindirirdi. Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə hələ 1980-ci illərin axırlarından aparılan danışıqlar 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Həmin dövrdə Azərbaycan elə bir müqavilənin imzalanmasına yaxınlaşmışdı ki, o, nəinki xalqın mənafelərini nəzərə almır, həmçinin, ölkənin qiymətli təbii sərvətini kiminsə maraqlarına yönəldərək, iqtisadiyyata böyük ziyan vura bilərdi.

Ancaq xalqın iradəsi, təkidli tələbi ilə 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara, faktiki olaraq yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" Sarayında dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti ("Amoko", BP, "MacDermott", "Unocal", SOCAR, "LUKoyl", "Statoil", "Exxon", "Türkiye Petrolleri", "Pennzoil", "Itochu", "Remko", "Delta") ilə müqavilə imzalandı. Bu saziş müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Ulu Öndər Azərbaycanı məhvolma təhlükəsindən xilas etməklə bərabər, neft sənayesini də böhran və tənəzzüldən qurtardı. Bununla da, müstəqil dövlətimizin neft strategiyasının və doktrinasının əsası qoyuldu.

2002-ci ildə Ulu Öndər Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu və 2006-cı ilin mayında Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı.

Göründüyü kimi, Ulu Öndərin rəhbərliyilə əsası qoyulmuş neft strategiyasının reallaşdırılması nəticəsində, bugünku sürətli inkişaf üçün möhkəm təməllər yaradıldı, hətta yeni əsrin müqaviləsinin yeni şərtlərlə imzalanmasına şərait formalaşdırdı. Belə ki, sentyabrın 14-də Bakıda daha bir mühüm tarixi hadisə baş verdi. "Əsrin müqaviləsi"nin 23-cü ildönümünə təsadüf edən bu təntənəli mərasimdə Azərbaycan hökuməti və Dövlət Neft Şirkəti (SOCAR), BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", TP, "Itochu" və "ONGC Videsh" şirkətləri ilə birlikdə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənilməsi barədə saziş imzalandı.

Bu, "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutur. Buna görə ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək, SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək. Həmçinin, SOCAR-ın payı 11,6 faizdən 25 faizə yüksələcək və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. 1994-cü ildə ilk müqavilə imzalanandan bəri AÇG-yə 33 milyard dollar sərmayə qoyulub və 440 milyon ton neft hasil edilməklə ölkəmiz 125 milyard dollardan çox birbaşa mənfəət əldə edib. Növbəti 32 il müddətində isə AÇG-yə 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı var. 2017-ci ilin birinci yarısında gündəlik orta hesabla 585 min barel hasilat əldə edilən AÇG-də hazırda 8 platforma - 6 hasilat platforması və 2 texnoloji platforma var. Bu platformalardan neft və qaz dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql olunur.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu sazişin gözəl nəticələrini öz həyatında görür. Yeni imzalanan saziş isə 1994-cü ildə imzalanan sazişdən daha böyük miqyaslıdır.

Dövlət başçısı bu gün dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanınan Azərbaycanın aparıcı xarici neft, enerji şirkətləri ilə çox uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatı yaratdığını söyləyərək, "Əsrin müqaviləsi"nin 23 il ərzində ölkəmizə çox böyük siyasi və iqtisadi dividendlər qazandırdığını vurğuladı: "Əsrin kontraktı" bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək. Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq, Azərbaycan nefti insan kapitalına çevirə bildi. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək".

Bir sözlə, bu saziş növbəti dəfə Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörənliyini, onun siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurduğu çoxvariantlı iqtisadi strategiyasının əsaslı olduğunu göstərdi. Məhz Prezident İlham Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin təmin edilməsinə yönəldilib. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Prezidentinin dərindən düşünülmüş neft strategiyası nəticəsində ölkəmiz regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan dövlətə, dünyanın əsas neft-qaz ixracatçısına çevrilib. "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində isə yeni dövrün başlanması Azərbaycanın gələcək dinamik inkişafına, maliyyə imkanlarının genişləndirilməsinə, dünya miqyasında öz mövqeyini daha da gücləndirməsinə əhəmiyyətli imkanlar formalaşdıracaq.

***"Səs" Analitik Qrupu***



# Bakıda "Qeyri-hökumət təşkilatları və dini icmalar: əməkdaşlıqdan birgə fəaliyyətə doğru" adlı konfrans keçirilib

*Sentyabrın 28-də Bakıda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə "Qeyri-hökumət təşkilatları və dini icmalar: əməkdaşlıqdan birgə fəaliyyətə doğru" adlı konfrans keçirilib.*

AZƏRTAC xəbər verir ki, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, Milli Məclisin deputatları, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Milli QHT Forumunun təmsilçiləri, dini konfessiyaların, ictimai birliklərin rəhbər və nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən Mübariz Qurbanlı bildirib ki, tədbir Azərbaycan Prezidenti tərəfindən elan olunmuş "İslam Həmrəyliyi İli" çərçivəsində keçirilir. "Azərbaycanda islami dəyərlərin təbliğində dini maarifçiliyə geniş yer ayrılır. Cəhalət, xurafat olan yerdə mütləq dini radikalizm baş qaldırır. Dini radikalizmin yaranması üçün mühit olmamalıdır. O mühitin olmaması üçün isə elm, təhsil mütləqdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin tərkib hissəsində milli mənəvi dəyərlərimizin qorunması önəmli yerlərdən birini tutur. Bu dəyərləri qorumaq üçün təbii ki, dini maarifləndirməyə də xüsusi diqqət yetirməliyik", - deyə M.Qurbanlı vurğulayıb.

Azay Quliyev çıxışında konfransın gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması baxımından önəmini qeyd edib. Şura sədri milli mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahədə qarşıda duran vəzifələrin icrası istiqamətində görülən işlərdən də ətraflı danışıb. Dini radikalizmin qarşısının alınmasında ən mühüm addımın maarifləndirmə olduğunu qeyd edən A.Quliyev gənclərimizin radikalizmdən uzaqlaşdırılması, onlara vətənpərvərlik və dövlətçilik hissinin aşılanması, milli mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində bu cür layihələrin reallaşdırılmasının vacibliyindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Hacı Salman Musayev bildirib ki, QMİ tərəfindən maarifləndirmə işlərinə getdikcə daha çox önəm verilir və artıq bu ildən başlayaraq mərkəzi məscidlərdə "Quran" kursları açılıb. O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı səmərəli mübarizə aparılması və dini maarifçilik işinin düzgün metodlarla təşkili istiqamətində görülən işlər barədə məlumat verib. Həmçinin gənclərin milli mənəvi ruhda tərbiyə edilməsi və düzgün maarifləndirilməsinin əhəmiyyətindən, onları radikal təsirlərdən qorumağın yollarından bəhs edib. Tədbirdə çıxış edən Milli Məclisin deputatları Çingiz Qənizadə, Qüdrət Həsənquliyev, Musa Qasımlı, dini icmaların rəhbərləri və nümayəndələri indiki həssas dövrdə dindarları daha diqqətli olmağa, həmçinin dini maarifləndirmə işinin artırılmasına, cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində hamının səfərbər olmasına, mövcud dini sabitliyi və dini dəyərləri qoruyub saxlamağa çağırıblar.

## Türkiyənin milli müdafiə naziri: "Azərbaycan torpaqları gec-tez azad ediləcək"

Ermənistanın işğalı altında olan Azərbaycan torpaqları gec-tez azad ediləcək. Bunu Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Nurəddin Canikli bu gün jurnalistlərə müsahibəsində deyib. Nazir bildirib ki, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ işğaldan azad olunmalıdır. Bu torpaqlar gec-tez Ermənistanın işğalından azad ediləcək. Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan nazir deyib: "Azərbaycanın gücü Türkiyənin, Türkiyənin gücü Azərbaycanın gücüdür. Biz digər sahələrdə olduğu kimi, müdafiə sənayesi sahəsində də səylərimizi birləşdirməliyik".

## Azərbaycanın yüksək dağlıq ərazilərinə qar yağıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti tərəfindən əvvəlcədən xəbər verildiyi kimi sentyabrın 27-si gündüzdən 28-i səhərədək ölkə ərazisində hava şəraiti qeyri-sabit keçib, şimşək çaxıb, arabir yağış yağıb, bəzi yerlərdə leysan xarakterli, intensiv olub, yüksək dağlıq ərazilərdə qar yağıb. Yağan intensiv yağış nəticəsində çaylarda sululuq artıb. Departamentdən AZƏRTAC-a bildirilib ki, düşən yağıntının miqdarı Bakıda və Abşeron yarımadasında 1-19, Lənkəran-Astara zonasında 14-150, Böyük Qafqazda 7-59, Mərkəzi Aran rayonlarında 7-19, Kiçik Qafqazda 3-18, Qazax-Gəncə zonasında 3-8 millimetr olub. Qar örtüyünün hündürlüyü Qubanın Qırız kəndində 11, Xınalıqda 13, Qusarda - Şahdağda 5 və Ləzədə 2 santimetr təşkil edib.

# Aydın Mirzəzadə: "Belə bəyanatlar Azərbaycanla Avropa Şurası arasında soyuq münasibətlərə səbəb ola bilər"



"Əslində, məsələ heç də İlqar Məmmədov məsələsi deyil. Bu, Azərbaycanın müstəqil xarici və daxili siyasət yürütməsinə qarşı Avropanın müəyyən dairələrinin reaksiyasıdır". Bunu "SƏS"-ə açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, millət vəkili Aydın Mirzəzadə Avropa Şurasının Baş Katibi Turbyern Yaqlandın Azərbaycan Məhkəməsinin qərarına əsasən məhkum olunmuş "REAL" təşkilatının rəhbəri İlqar Məmmədovun azadlığa buraxılmadığına görə Azərbaycana qarşı misli görünməmiş hüquqi hərəkət edilməsinə çağırmasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, bir müddət əvvəl, Azərbaycan "Azəri-Günəşli-Çıraq"la" bağlı yeni müqavilə bağladı və SOCAR-ın orada payı 11%-dən 25%-ə qalxdı: "Azərbaycan bu gün öz valyuta ehtiyatlarından müstəqil surətdə istifadə edir. Bu, Avropanın müəyyən dairələrini narahat edir və iqtisadi maraqlarına toxunur. Ermənistanı müdafiə edən müəyyən dairələr Azərbaycanı Ermənistana ərazi güzəştə getməməsinə görə cəzalandırmağa çalışırlar. Digər tərəfdən, Avropa Məhkəməsi qərar qəbul edib, bu, Avropa Məhkəməsi ilə Azərbaycan arasında olan münasibətdir. Yaqland beynəlxalq təşkilatın bir çinovnikidir. Onun vəzifəsi təşkilatın işlərini aparmaqdır. Azərbaycanın üzərində prokuror nəzarəti həyata keçirmək, Azərbaycana diktə etmək, - heç kim bu səlahiyyəti ona vermir. Ona görə də, hesab edirəm ki, belə bəyanatlar Azərbaycanla Avropa Şurası arasında soyuq münasibətlərə səbəb ola bilər. Bunun da məsuliyyətini, ilk növbədə, Yaqland çəkəcək".

**İNAM**

# "Azərbaycanın reytinqdə yüksəlməsi həyata keçirilən iqtisadi islahatlarla əlaqədardır"



"Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın reytinqinin daha iki pillə yüksələrək 35-ə çatması hər şeydən öncə ölkəmizdə həyata keçirilən mühüm iqtisadi islahatlarla əlaqədardır". Bu fikirləri SİA-ya Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, bu göstərici ilə Azərbaycan MDB məkanında birinci olmaqla, hətta İtaliya, Rusiya, Türkiyə, Hindistan, İndoneziya kimi bir sıra G20 ölkələrini arxada qoyaraq öz yerini iqtisadi rəqabətlilik baxımından çox ciddi şəkildə möhkəmləndirib: "Əgər biz müəyyənləşdirilmiş kriteriyalara diqqət yetirsək, görəcəyik ki, belə hesabatlar zamanı 12 indikator üzrə qiymətləndirmələr aparılır və bu indikatorların əslində necəliyi də reytinqi müəyyənləşdirir. Bu baxımdan Azərbaycan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda 12 indikator testindən 9-u üzrə çox yüksək nəticələr göstərib. Azərbaycanı 35-ci pilləyə daşıyan da elə bu göstəricilərdir. Biz hər bir göstəricini təhlil etməyə çalışsaq, görəcəyik ki, 2014-2015-ci illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar və struktur islahatları bu uğuru əldə etməyimizə səbəb olub".

Azərbaycanda 2014-2015-ci illərdə baş verən iqtisadi proseslərdən sonra ciddi institusional və struktur islahatlarının aparıldığını deyən H.Babaoğlu söyləyib ki, görünür, bu islahatların aparılması və onun effektiv nəticələri Dünya İqtisadi Forumunun diqqətindən yayınmayıb: "Qısa müddətdə bəlli olub ki, aparılan islahatlar strateji xarakterli və effektiv islahatlardır. İkinci indikator olan infrastruktur üzrə Azərbaycan 4 pillə irəliləyib. Doğrudan da, Azərbaycanda yeni infrastrukturun yaradılması ilə bağlı çox böyük işlər görülüb. İnfrastruktur isə ölkənin iqtisadi inkişafının şərtləndirən əsas baza komponent hesab olunur. Çünki magistral yollar, kommunikasiyalar, enerji və rabitə təchizatı olmasa sahibkarlığın və iqtisadi göstəricilərin inkişafından da danışmaq olmaz. İkinci indikator üzrə irəliləyişimizdə ölkəmizdə həyata keçirilən infrastruktur islahatları böyük rol oynayıb. Yolların çəkilməsi, su və qaz təchizatı kimi mühüm məsələlər məhz növbəti indikator üzrə irəliləyişimizi təmin edib".

"Üçüncü indikator isə səhiyyə, tibb, təhsil, üzrə olan indikatordur ki, burada da yenə Azərbaycanda tibb, səhiyyə və təhsil sahəsində aparılan islahatlar diqqəti cəlb edib. Biz bu indikator üzrə təqribən 6 pillə irəliləmişik. Çünki Azərbaycanda icbari sığortanın tətbiqi ilə bağlı artıq Mingəçevir və Yevlax şəhərində pilot layihələr həyata keçirilir. Bütövlükdə Azərbaycanda çoxsaylı tibbi diaqnostika mərkəzləri, xəstəxanalar tikilib. Bunların ümumi sayı ötən 15 il ərzində 600-dən çox olub. Bu isə Azərbaycanda səhiyyə xidmətində yeni keyfiyyət dəyişikliyi yaradıbdır. Ona görə də haqlı olaraq bu məsələdə də yüksək qiymətləndirilib"- deyə, deputat qeyd edib.

Deputatın fikrincə, Azərbaycanın sözügedən reytinqdə əmtəə, əmək və maliyyə bazarının səmərəliliyi üzrə irəliləyiş əldə etməyinin səbəbi bu üç komponentin bir-birini tamamlamasıdır: "Əgər əmtəə istehsal olunursa, onun bazarı formalaşır, əmək bazarına peşəkar kadrların təqdim olunması və əmək istehsal münasibətlərində yeni keyfiyyət, bu münasibətlərin cəmi isə maliyyə münasibətləri yaradır. Biz bilirik ki, uzun müddət Azərbaycanda daxili istehsalın artırılması və regionlarda rəqabət qabiliyyətli, ixrac yönümlü istehsalının formalaşdırılması, prosesi həyata keçirilir və müvafiq indikatorlar üzrə uğurların əldə edilməsi də bununla əlaqədardır".

"Biznes, innovasiyalar və digər komponentlər üzrə Azərbaycanın irəliləməsində isə sahibkarlığın inkişafı ilə bağlı milli fondun yaradılması, biznes mühitinin yaxşılaşdırılması, ölkəyə sərmayə gətirən və istehsal vasitəsi hesab olunan malların gömrük rüsumundan azad edilməsi kimi faktorlar öz rolunu oynayıb. Nəticədə Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən bu tədbirlər Azərbaycan iqtisadiyyatını, rəqabət qabiliyyətliliyini artırmaqla onu cəlbedici edib. Buna görə də Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın 35-ci yerdə qərarlaşması ölkəmizdə həyata keçirilən islahatlar və onun qısa müddətdə verdiyi effektiv nəticələrlə əlaqədar olub və bütün bunlar isə təkcə qiymətləndirmə ilə məhdudlaşmır. Həyata keçirilən bu islahatlar növbəti mərhələdə də Azərbaycanın daha sürətlə inkişaf etməsi, ölkəmizdə rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşması və iqtisadi inkişafın yeni mərhələsinin təmin olunması baxımından da əhəmiyyətlidir".

# Azərbaycanın hərtərəfli inkişafına beynəlxalq qiymət...

*Yaxud Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşıb*








***Məlum olduğu kimi, Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan reytinqdə daha iki pillə yüksələrək, 35-ci yerdə qərarlaşıb. Bununla da, beynəlxalq aləmin ən mötəbər reytinqində Azərbaycan dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq, MDB-də liderliyini qoruyub. Hətta G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə və Cənubi Afrika Respublikası kimi ölkələr də iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə Azərbaycandan geridə qalır. Qlobal rəqabət qabiliyyəti reytinqində Rusiya 38-ci, Qazaxıstan 57-ci, Gürcüstan 67-ci, Ermənistan isə 73-cü sırada yer alıb.***

Neftin qiymətinin dünya bazarında aşağı olduğu dövrdə Azərbaycanın rəqabət qabiliyyətinin yüksək olması və bunun dünyanın ən aparıcı iqtisadi forumu tərəfindən qiymətləndirilməsi təqdirəlayiqdir. Bu, əslində, Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlara beynəlxalq qiymət kimi də xarakterizə edilməlidir. Nəticə etibarilə, bu, onu göstərir ki, post-neft dövründə aparılan islahatlar Azərbaycanın rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxarıb. Dünya bazarında neftin qiymətinin aşağı olmasına və ölkəyə daxil olan neft gəlirlərinin azalmasına baxmayaraq, Azərbaycan rəqabətqabiliyyətli ölkə mövqeyini, nəinki qoruyub-saxlayıb, hətta gücləndirə bilib. Bu isə, ondan xəbər verir ki, Azərbaycanda artıq qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlar həm ölkənin investisiya mühitinin daha da yaxşılaşmasına, ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsinə və mövcud infrastrukturdan və potensialdan iqtisadi diversifikasiya imkanları üçün istifadə edilməsinə gətirib çıxarıb.

Ekspertlərin fikrincə, dünyanın aparıcı beynəlxalq qurumlarından biri olan Dünya İqtisadi Forumunun hesabatında ölkəmizin mövqeyinin yaxşılaşması həm də Azərbaycanda investisiyanın cəlbi və ölkənin mövcud potensialının təqdim edilməsi baxımından vacibdir. Bu, Azərbaycana mövcud potensialını təqdim etməyə, xüsusilə də, qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsini davam etdirməyə imkan verir. Bu hesabatı həm də Azərbaycan iqtisadiyyatının xaricdə təqdimatında və ölkəmizin mövcud potensialının, eləcə də, iqtisadi imkanlarının təqdimatında, investisiyanın cəlb edilməsində vasitə kimi xarakterizə etmək olar. Çünki aparıcı şirkətlər investisiya qərarı verən zaman, məhz belə hesabatlarda ölkələrin mövqeyinə diqqət yetirirlər.

Təsadüfi deyildir ki, dünya ölkələri üçün dördüncü sənaye inqilabı innovasiya sahəsində çağırışlar ortaya qoysa da, Azərbaycan bu sahədə, əksinə, mövqelərini gücləndirib və 33-cü pilləyə yüksəlib. Xüsusilə, yüksək texnologiyalar sahəsində hökumət tədarükü elementi üzrə Azərbaycan 14-cü yerdə qərarlaşıb və Honq-Konq, Niderland, Norveç və Böyük Britaniya kimi ölkələri geridə qoyub. "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda, dünyada əsas narahatedici trendlərdən biri kimi, "dağıdıcı bərabərsizlik" qeyd edilsə də, Azərbaycan Cini əmsalının aşağı olmasına görə sosial bərabərsizliyin ən aşağı olduğu ölkələrdən biri kimi qiymətləndirilir.

Əlbəttə, Azərbaycanın qazandığı bu nailiyyətlər sosial-iqtisadi inkişafın davam etdiyini göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin sistemli iqtisadi siyasət kursu öz müsbət nəticələrini verir. Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqində irəliləməsi, bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir. Xüsusilə, vurğulanmalıdır ki, "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamından sonra bu sahədə ölkədə kompleks işlər davam etdirilib. Keçən qısa müddət ərzində sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitini yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi həyata keçirilib. Prezident İlham Əliyevin 2016-cı il dekabrın 6-da təsdiqlədiyi Strateji Yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələri də, onu göstərir ki, sistemli iqtisadi siyasət kursu öz müsbət nəticələrini verməkdədir. "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın iki pillə irəliləməsi göstərir ki, digər mötəbər reytinqlərdə də ölkəmizin mövqeləri daha da güclənəcək.

Bir sözlə, dövlətimizin başçısı İlham Əliyev Azərbaycan iqtisadiyyatını inkişaf etdirir, bu sahəyə diqqəti daha da artırır ki, ölkəmiz gələcəkdə G20-nin sırasında olsun. Azərbaycanın qazandığı iqtisadi nailiyyətlər, xüsusilə də, Dünya İqtisadi Forumunun elan etdiyi son nəticələr, bir daha onu göstərir ki, bu, reallığa çevrilə bilər. Çünki Azərbaycanın G20 ölkələrinin sırasına daxil olması üçün geniş potensial imkanları var.

***"Səs" Analitik Qrupu***

# Azərbaycan Ordusu hərbi qüdrətinə görə dünyada 58-ci sıradadır

## *Əgər müharibə başlanarsa, ölkəmiz qarşısına qoyduğu ali məqsədi uğurla həyata keçirmək əzmindədir*

***Xəbər verdiyimiz kimi, "Global Fire Power" Mərkəzi, ümumilikdə 50 göstərici əsasında dünyanın ən güclü ordularının reytinqini açıqlayıb. Ümumilikdə, 133 ölkənin yer aldığı siyahıda Azərbaycan Ordusu hərbi qüdrətinə görə 58-ci sıradadır. Azərbaycan bu göstərici üzrə region ölkələrini qabaqlayır. Reytinq siyahısında Gürcüstan 82-ci, Ermənistan isə 93-cü yerdədir. Siyahı hazırlanarkən ölkələrin ordularının şəxsi heyətinin, ehtiyatda olan hərbçilərin, orduya yararlı insanların sayı əsas götürülüb. Bununla yanaşı, orduların arsenalındakı silahların müxtəlifliyi, nüvə potensialı, coğrafi mövqe, təbii ehtiyatlar və ölkənin infrastrukturu nəzərə alınıb. Siyahıda ilk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Böyük Britaniya, Yaponiya, Türkiyə, Almaniya və Misir orduları yer alıblar.***



Reytinqin Azərbaycanla bağlı hissəsinin hazırlanması zamanı nəzərə alınan faktorlar birbaşa olaraq ölkəmizdə həyata keçirilən ordu quruculuğu siyasətilə bağlıdır. Çünki ordu hər bir dövlətin mühüm atributu, təhlükəsizlik sisteminin əsasıdır.

Hazırda dünyada Kosta-Rika istisna olmaqla, ordusu olmayan ikinci bir dövlət yoxdur. Hər bir dövlət öz ordusunun inkişafı üçün əzmlə çalışır, bu istiqamətdə bütün zəruri tədbirləri həyata keçirir. Azərbaycan da dövlət müstəqilliyini əldə etdikdən sonra ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlayıb. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra respublikamızda ordu quruculuğu prosesi ardıcıl və sistemli şəkildə həyata keçirilib.

Əsası qoyulan siyasətin son illərdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də silahlı qüvvələrimizin həm kəmiyyət, həm də keyfiyyətcə komplektləşməsinə, daha da güclənməsinə çalışır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında bir daha ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ordunun üzərinə mühüm vəzifələr düşdüyünü bildirir. Eyni zamanda, Azərbaycanın uzun müddət nəticəsiz qalacaq danışıqlarda iştirak etmək niyyətində olmadığını vurğulayır.

Ümumiyyətlə, son illərdə respublikamızda həm dövlət, həm də ordu quruculuğu sahəsində böyük işlər görülüb, güclü və qüdrətli dövlət modeli yaradılıb. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz sahibi olan dövlətlər sırasındadır. Ölkə iqtisadiyyatında aparılan islahatlar Azərbaycanın iqtisadi qüdrətinin güclənməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, maddi rifah halının yüksəlməsinə, habelə, dövlət quruculuğu prosesi üçün ciddi iqtisadi əsasların yaranmasına səbəb olub. Ordu quruculuğu məsələsi də daim diqqət mərkəzində olduğu üçün silahlı qüvvələrin NATO standartları əsasında formalaşdırılması, müasir hərbi texnika və silahlarla təchiz edilməsi, strateji və taktiki hazırlığının yüksəldilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Nəticədə bu gün Azərbaycan Ordusunun ən mürəkkəb hərbi əməliyyatlara tam hazır olduğu aşkar görünür. Azərbaycan Silahlı Qüvvələri texniki təchizat, professional hazırlıq, mənəvi ruh yüksəkliyi və digər parametrlər baxımından Ermənistan ordusundan qat-qat üstündür. Bunu son dövrlərdə işğalçı ölkənin mediası, ictimai xadimləri, müdafiə naziri və generalları da açıq etiraf edirlər.





Azərbaycan Ordusundan fərqli olaraq, Ermənistan ordusunda zabitlərin özbaşınalığı və "dedovşina" bu ölkədə əsgərlərin valideynlərinin qorxulu kabusuna çevrilib. Valideynlər hərbi xidmətdə olan oğullarının döyüş tapşırığını yerinə yetirərkən ölməsindən daha çox, orduda hökm sürən yerlibazlıq, əyyaşlıq, nizamnamədən kənar münasibətlər və zabitlərin özbaşınalığının qurbanı olmasından qorxurlar. Son günlər bir-birinin ardınca baş verən hadisələr və hər dəfə də 2-3 əsgərin xəsarət alması hərbi qulluqçuların valideynlərinin böyük narahatlığına səbəb olub. Avqustun 29-da işğalçı Ermənistan ordusunun Ağdərə istiqamətindəki bölmələrindən birində daha 3 sıravi əsgər komandirləri tərəfindən vəhşicəsinə döyülərək şəxsi heyət qarşısında təhqirlərə məruz qalıb. Ac-susuz qalan və günəş altında qazıntı işləri aparmaqdan imtina edən Harut Martirosyan, Levon Xaçaturyan və Eduard Bağdanyan komandirləri tərəfindən döyülüblər. Sosial şəbəkələrdə paylaşımalardan bəlli olub ki, Xocavənddə işğalçı Ermənistan ordusunun digər hərbi hissəsinin 2-ci alayında komandirin texniki hissə üzrə müavini alay üzrə cavabdeh qaldığı zaman dostları ilə kef məclisi qurub. Sonradan o, sərxoş vəziyyətdə bölüyə gəlib və şəxsi heyətə qarşı qanunazidd hərəkətlərə yol verib. Müqavilə əsasında xidmət keçən iki hərbi qulluqçu buna dözməyərək bölməni tərk edib və səhər qayıtdıqdan sonra hadisə barədə alay komandirinə şikayət ediblər. Cavabdeh olduğu müddətdə vəzifə səlahiyyətlərini aşan həmin zabit 5 sutka müddətinə həbs edilərək haupvaxta göndərilib.

Göründüyü kimi, bütün parametrlər baxımından işğalçı Ermənistan ordusundan üstün olan Azərbaycan Silahlı Qüvvələri Ermənistan ərazisində bütün hədəfləri vurmaq, habelə, düşmənin zəbt etdiyi ərazilərimizdəki mövqelərini sıradan çıxarmaq iqtidarındadır. Şübhəsiz, müharibə böyük maliyyə vəsaiti tələb edən prosesdir. Yüksək maddi-texniki və mənəvi təminat olmadan hərbi əməliyyatlarda ciddi uğurlar qazanmaq mümkün deyildir. Yəni iqtisadi imkanlar olmadan hərbə əl atmaq yalnız qısa müddət üçün effekt verə bilər. Azərbaycan iqtisadiyyatının qısa zamanda müharibə şəraitinə hazır vəziyyətə gətirilməsinin mümkünlüyü, ordumuzun, silahlı qüvvələrimizin təchizatı üçün hərbi-sənaye kompleksinin yaradılması, deməyə əsas verir ki, əgər müharibə başlanarsa, ölkəmiz qarşısına qoyduğu ali məqsədi uğurla həyata keçirmək əzmindədir.

***"Səs" Analitik Qrupu***





# “25 il keçmişə və gələcəyə baxışdır”

*YAP Yasamal rayon “Neftqazelmitədqiqatlayihə” İnstitutu ərazi ilk partya təşkilatı Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinə həsr olunmuş tədbir keçirdi*

Dünən YAP Yasamal rayon “Neftqazelmitədqiqatlayihə” İnstitutu ərazi ilk partiya təşkilatında partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan təşkilatın idarə heyətinin üzvü, “Neftqazelmitədqiqatlayihə” İnstitutunun direktoru Fəxrəddin İsmayılov bildirdi ki, bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyə malik olan Yeni Azərbaycan Partiyasının hansı zərurətdən yarandığını təhlil etmək hər zaman günün tələbi olaraq aktualdır: “Zamanın tələbi, xalqın istəyi ilə yaranan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisidir. Partiya dövlətə və xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək, atdığı addımlarla cəmiyyətdə nüfuzunu daha da artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir”.

Tədbirdə çıxış edən YAP Yasamal rayon “Neftqazelmitədqiqatlayihə” İnstitutu ərazi ilk partiya təşkilatının sədri Xıdır İbrahimov vurğuladı ki, uğurlarımızın ümumiləşdirilmiş ifadəsi olaraq, deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasət Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır və hədəflər müəyyənləşdirir. Yeni Azərbaycan Partiyasının hər bir üzvü bu hədəflərə çatmağa öz töhfəsini verməyə səy göstərir.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxışında qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi müstəqil Azərbaycanın tarixində əhmiyyətli hadisədir: “25 il keçmişə və gələcəyə baxışdır. Ötən dövrdə Azərbaycan düzgün qurulan siyasətin sayəsində inkişaf və tərəqqi yolunda inamla irəliləyərək, bu gün beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas məkana, eyni zamanda, iqtisadi möcüzələr ölkəsinə çevrilib. Bu uğurların fonunda Azərbaycanın müstəqilliyinin ilk illərində yaşadığı ağır durum aydın şəkildə görünür”. T.Əhmədov Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin, eyni zamanda, Yeni Azərbaycan Partiyasının nailiyyətlərindən bəhs etdi. Bildirdi ki, bu gün Azərbaycan böyük quruculuq meydançasını xatırladır.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirdi ki, Azərbaycanın bugünkü inkişafı və tərəqqisi hər bir Azərbaycan vətəndaşında, Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi yaradır: “Möhkəm təməl Azərbaycanın qarşısında geniş imkanlar açır. Yeni Azərbaycan Partiyası uğurlu fəaliyyəti ilə dövlətin modernləşmə və yeniləşmə siyasətinə dəstəyini təsdiqləyir. Bu gün inkişafın Azərbaycan modelinin movcudluğunun beynəlxalq səviyyədə təsdiqlənməsi Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətə və bu xəttin hazırda Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə söykənir”. V.Rəhimzadə bu günümüzün reallıqlarını müstəqilliyimizin ilk illəri ilə müqayisə edərək, Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini açıqladı: “Xalqın istəyi ilə yaradılan Yeni Azərbaycan Partiyası elə yarandığı gündən milyonların sevgisini qazandı. Təbii ki, bu sevgi söz və əməl birliyinə əsaslanır. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı və Möhtərəm Prezidentimiz İlham Əliyevin Sədri olduğu YAP regionun aparıcı siyasi təşkilatına çevrilib”. V.Rəhimzadə çıxışında diqqəti bu günlərdə “Yeni əsrin müqaviləsi”nin imzalanmasına yönəltdi. Bildirdi ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası daim müstəqil Azərbaycanımızın qarşısında geniş üfüqlər açır. Azərbaycan iqtisadi və siyasi mövqeyini möhkəmləndirməklə yeni tərəfdaşlar, dostlar qazanır və beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilir. “Neftqazelmitədqiqatlayihə” İnstitutunun əməkdaşı Ramil Qədirov çıxışında bildirdi ki, Azərbaycan gəncliyi Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunmaqdan, Cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, gələcəyə inamla irəliləməkdən böyük qürur duyur.

Sonra partiya sıralarına daxil olmaq istəyənlərin müraciətlərinə baxıldı. Müraciət edənlər sırasında “İki sahil” qəzetinin əməkdaşları Günel Cəlilova, Şəfiqə Dadaşova, Mənsumə Babayeva və Nurlan Məlikzadə də vardı. Sonda YAP Yasamal rayon “Neftqazelmitədqiqatlayihə” İnstitutu ərazi ilk partiya təşkilatının sədri Xıdır İbrahimova 50 illik yubileyi və partiyanın işində fəal iştirakına görə YAP Yasamal rayon təşkilatının fəxri fərmanı təqdim edildi.

**NƏZAKƏT**

# YAP Mingəçevir şəhər təşkilatının IX konfransı keçirilib




Sentyabrın 28-də YAP Mingəçevir şəhər təşkilatının IX konfransı keçirilmişdir. Konfransda iştirak edən qonaqlar və konfrans nümayəndələrinin bir qrupu Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış əzəmətli abidəsini ziyarət etmiş, abidənin önünə tər çiçəklər düzməklə onun əziz xatirəsini ehtiramla yad etdilər.



Konfransda Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və ötən konfransdan keçən müddətdə dünyasını dəyişmiş partiya üzvlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. VIII konfransdan ötən dövr ərzində görülən işlər barədə YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov məruzə ilə çıxış edərək hesabat verdi. Sonra gündəliyə müvafiq olaraq nəzarət- təftiş qrupunun gördüyü işlər barədə hesabat konfrans iştirakçılarının diqqətinə çatdırıldı.

Məruzə ətrafında çıxış edənlər hesabat dövrü ərzində görülən işlər, keçirilən tədbirlər barədə konfrans iştirakçılarına məlumat verərək, təşkilatın səkizinci konfransdan keçən müddət ərzindəki fəaliyyətinə də öz münasibətlərini bildirdilər. Konfransda daha sonra təşkilati məsələlərə baxıldı. Konfransda YAP Mingəçevir şəhər təşkilatının 51 nəfərdən ibarət şurası, 7 nəfərdən ibarət nəzarət- təftiş qrupunun tərkibi seçildi. Konfransda YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov yekdilliklə yenidən şəhər təşkilatının sədri seçildi.

Konfransda Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov və Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək YAP-ın keçdiyi şərəfli inkişaf yolundan, respublikanın ictimai -siyasi həyatında oynadığı roldan, həmçinin YAP Mingəçevir şəhər təşkilatının gördüyü işlərdən və qarşıda duran vəzifələrdən bəhs etdilər.

# “Yeni Azərbaycan Partiyasının gələcəyi gənclərə məxsusdur”

Dünən YAP İsmayıllı rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə gənclərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə YAP İsmayıllı rayon təşkilatının sədr əvəzi Sevil Əhmədova açaraq, gənc nəslin yetişdirilməsinin hər bir ölkə üçün ən başlıca məsələ olduğunu bildirib: “Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Məhz Ulu Öndərimizin müəyyənləşdirdiyi, Prezidentimiz İlham Əliyevin davam etdirdiyi siyasət nəticəsində, gənclər cəmiyyətdə bu gün öz yerini tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət-gənclər siyasəti və bu siyasət nəticəsində gənclərin təhsil, sosial müdafiə və işlə təminatı sahələrində atılan məqsədyönlü addımlar gənclərin Yeni Azərbaycan Partiyasına axının gücləndirir. Ölkəmizdə yeni iş yerlərinin açılması, tələbə-gənclərin təqaüdlərinin və gənclərin xarici ölkələrdə təhsil imkanlarının artırılması dövlətimizin gənclərlə bağlı siyasətinin əsas istiqamətləridir”.



Tədbridə YAP İsmayıllı rayon təşkilatının gənclər birliyinin sədr müavini Qönçə Ağazadə, gənc YAP üzvü Ceyhun Əsgərov, partiya veteranları Məhərrəm Əhmədov, Hafiz Kərimov, Əlaləm Babayev çıxış edərək, qeyd etdilər ki, Azərbaycan siyasi palitrasının ən güclü və nüfuzlu siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası öz sıralarında cəmiyyətin bütün təbəqələrini təmsil edən insanları birləşdirir: “Müasir Azərbaycan gənclərinin mütləq əksəriyyəti ölkəni davamlı olaraq qələbələrə, uğurlara, yüksəlişə aparan Yeni Azərbaycan Partiyasını və onun Sədri Möhtərəm Prezident İlham Əliyevi dəstəkləyir və Onun ətrafında sıx birləşərək, ölkəmizin işıqlı gələcəyinə inamlı addımlarla irəliləyir”.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasına üzv qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri təqdim olundu.

**ZÜMRÜD**

## Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edən şəxslər barədə cinayət işi başlanıb

Türkiyə Respublikasının vətəndaşları Ufuk Uras, Əli Bayramoğlu, Səid Çəkinoğlu və Erol Katırçıoğlunun 2017-ci il sentyabrın 22-də Ermənistan Respublikasında və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə qabaqcadan əlbir olub Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müvafiq icra hakimiyyətinin razılığı və sənədləri olmadan, dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yeni, Ermənistan Respublikası ərazisindən qəsdən keçərək Xankəndi və digər yaşayış məntəqələrinə qanunsuz gəlmələrinə əsaslı şübhələr olduğundan 2017-ci il sentyabrın 28-də Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə cinayət işi başlanıb.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ufuk Uras, Əli Bayramoğlu, Səid Çəkinoğlu və Erol Katırçıoğlu Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilərək dövlətlərarası axtarışa verilib. Həmin şəxslərin tutularaq istintaqa cəlb edilmələri məqsədilə Türkiyə hüquq mühafizə orqanlarına müraciət olunub. Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## "Bu, erməni lobbisinin yeni təxribatıdır"



"Türkiyədən olan bir qrup ziyalının "Qərbi Ermənistan Konqresi" adlanan təşkilatın təşəbbüsü ilə Dağlıq Qarabağa səfər etməsi, qrup üzvlərinin anti-Azərbaycan və anti-Türkiyə xarakterli, ermənipərəst fikirlər səsləndirməsi təxribat xarakterlidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Asim Mollazadə deyib. Onun sözlərinə görə, bu hadisə Azərbaycan ictimaiyyətində təəccüb, böyük narahatlıq və hiddətə qarşılanıb və belə bir addım təhlükəli bir addımdır: "Bu cür şəxsləri ziyalı adlandırmaq çox çətindir. Türkiyədə belə hərəkətlərə düzgün qiymət verməyə qadir olan insanlar var və həmin insanlar bu ziyalıların hərəkətinə qiymət verəcəklər. Düşünürəm ki, bu Erməni lobbisinin yeni təxribatlarından biridir. Təəssüflər olsunki türkiyə vətəndaşlarının arasında da belə təxribata qoşulan insanlar var. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı Türkiyə hökumətindən ciddi tədbirlər görülməsini səbrsizliklə gözləyir".

## Bəhruz Quliyev: "Azərbaycan qısa zaman kəsimində daha böyük uğurlara imza atmaq gücündədir"

***"Azərbaycanın beynəlxalq siyasi-iqtisadi aləmdəki yerinin möhkəmləndirilməsi əsasında dayanan mühüm faktor ilk növbədə ölkə rəhbərliyinin apardığı məqsədyönlü siyasətin məntiqi nəticəsidir". SİA-nın xəbərinə görə, bunu Trend-ə siyasi ekspert Bəhruz Quliyev Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nı şərh edərkən bildirib.***

Onun sözlərinə görə, sözügedən hesabatda Azərbaycanın mövqeyinin daha iki pillə artması, yəni 35-ci yerə qərarlaşması, MDB ölkələri arasında lider olması, həmçinin G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi ölkələri də geridə qoyması qeyd edilən fikirləri kifayət qədər təsdiq etmiş olur: "Əlbəttə, əgər nəzərə alsaq ki, dünya bazarında neftin qiymətinin aşağı olduğu dövrdə ölkəmizin rəqabətədavamlılığı yüksəlib və nüfuzlu qurum hesab edilən Dünya İqtisadi Forumu tərəfindən qiymətləndirilib, bu zaman əminliklə deyə bilərik ki, Azərbaycan qısa zaman kəsimində daha böyük uğurlara imza atmaq gücündədir".

"Ölkəmiz bu uğurları yalnız post-neft dövründə əldə etməyib", - deyə qeyd edən B.Quliyev hesab edir ki, əldə edi-



lən nailiyyətlərin digər əsas faktoru qeyri-neft sektorunun inkişafına aid edilə bilər: "Yeni ölkəmizin dünya iqtisadiyyatı fonundakı yüksəlişi, rəqabətədavamlılığı və rəqabətqabiliyyəti ölkə Prezidenti İlham Əliyevin qeyri-neft sektorunun inkişafı fonunda reallaşdırdığı islahatları ilə də əlaqələndirilməlidir. Burada isə yalnız beynəlxalq layihələrin deyil, eyni zamanda ölkədaxili layihələrin həyata keçirilməsi sözügedən amili ehtiva edir. Misal üçün, beynəlxalq layihələr çərçivəsində TAP, TANAP, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, İpək Yolu və s. layihələrlə yanaşı, ölkədaxili iqtisadiyyatımızın inkişafı məqsədilə imzalanan əhəmiyyətli sərəncamların hər biri bilavasitə Azərbaycanın iqtisadi reytinqdəki yüksəlişini təmin edir. Məhz sonuncu hesabat da bu gerçəklikləri sübuta yetirmiş olur. O cümlədən, bu yaxınlarda imzalanmış yeni "Əsrin müqaviləsi" hesabatda irəliləməmizə təkan verən faktorlardandır. Xüsusilə, Prezident İlham Əliyevin 2016-cı il dekabrın 6-da təsdiqlədiyi Strateji Yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələri də sübut edir ki, aparılan sistemli iqtisadi siyasət kursu öz bəhrələrini verməkdədir".

"Ümumiyyətlə, Azərbaycan bir çox önəmli layihələrdə həm təşəbbüskar, həm də iştirakçı rolunu oynamaqla istər xarici sərmayələrin cəlb edilməsində, istərsə də özünün sərmayələr yatırması baxımından aparıcı ölkələr sırasında yer almaqdadır", - deyə qeyd edən siyasi ekspertin fikrincə, dünyanın bir çox aparıcı şirkət və konsernləri, nüfuzlu korporasiyalar ilk növbədə iş qurmaq istədikləri ölkələrin növqeləri ilə maraqlandırlar. Azərbaycan isə ən münbit və ən etibarlı tərəfdaş olaraq daim aparıcı layihələrin iştirakçısı yerini tutur. B.Quliyev əldə edilən iqtisadi nailiyyətlərin bilavasitə Azərbaycan xalqının rifahına doğru atılmış mütərəqqi addım olduğunu qeyd edib: "Əbəs deyil ki, cənab Prezident bütün çıxışlarında əsas olaraq, insan faktorunu diqqətdə saxladığını vurğulayır. Çünki dövlətin əsas marağı Azərbaycan vətəndaşının daha yaxşı yaşamasına hesablanıb. Əlbəttə, xalqın hakimiyyətə verdiyi dəstək də bu kontekstı əhatə etdir və xalq-hakimiyyət birliyi Azərbaycanın dünyanın siyasi-iqtisadi arenasında əldə etdiyi uğurları daha da artırmış olur".

## Elçin Mirzəbəyli: "Avropa Şurası baş katibinin mülahizələri effekt verməyəcək"

***"Baş katibin fikirləri əlbəttə, bütövlükdə Avropa Şurasının mövqeyi kimi qəbul edilə bilməz. O yalnız özünün subyektiv fikirlərini səsləndirə bilər. Bütövlükdə Avropa Şurasının, Parlament Assambleyasının da yaradılmasında əsas məqsəd, üzv dövlətlərin qanunvericiliyinin bir-birinə yaxınlaşdırılması, əməkdaşlıq perspektivlərinin genişləndirilməsidir. Yəni bu qurumların hər hansı birinin cəzalandırılma, rəy formalaşdırma statusu yoxdur".***

Bunu SİA-ya açıqlamasında siyasi-şərhçi Elçin Mirzəbəyli açıqlamasında



deyib. Əməkdaşlıq üçün yaradılan qurumların böyük əksəriyyətinin hansısa maraqlar ucbatından əsas funksiyalarını yerinə yetirmədiyinə, özlərini hakim kimi apardıqlarına təəssüfünü bildirən E.Mirzəbəyli bildirib ki, bütün bunlar da həm inteqrasiya prosesinə mane olur, həm də beynəlxalq təşkilatların nüfuzdan düşməsinə zəmin yaradır: "Bu baxımdan Avropa Şurasının Baş katibi Turbyern Yaqlandın açıqlamaları qurumun özünün prinsiplərinə ziddir. Hansısa subyektiv mülahizələrə söykənərək, bu gün dünyada sülhün və əmin-amanlığın qorunub saxlanması istiqamətində əməli mövqe nümayiş etdirən, beynəlxalq birliyin ən nizamlı üzvlərindən biri olan, multikultural dəyərlərin qorunduğu bir ölkəyə qarşı qeyri-obyektiv mülahizələr səsləndirir. Hesab edirəm ki, bu şəxsin subyektiv mövqeyinə qarşı Avropa Şurasının özündə də ədalətli bir mövqe səsləndiriləcək. Onun tərəfindən irəli sürülən subyektiv mülahizələrin hər hansı bir effekt verməyəcəyini düşünürəm".

Hazırda ortada ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün pozulması, işğalçı faktının olduğunu dilə gətirən siyasi şərhçi söyləyib ki, əgər Avropa Şurası və onun rəhbərində təmsil olunan şəxslər işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi-köçkün vəziyyətinə düşən 1 milyondan artıq insanın hüquqlarının müdafiəsi ilə bağlı bir kəlmə söz açmırsa, bu şübhəsiz ki, onların qeyri-obyektiv və ədalətsiz mövqeyindən, eyni zamanda işğalçının maraqlarına xidmət etməsindən xəbər verir: "Azərbaycan torpaqlarının 20 faizindən çoxu işğal olunub, 1 milyondan çox insan özünün ən adi hüquqlarından məhrum olub. Ermənistanın bu işğal faktından Azərbaycan xalqının ziyan çəkməsi, azərbaycanlıların ermənilərin etnik təmizlənməsi siyasətinə məruz qalması ilə bağlı çoxlu sayda faktlar var və bu faktlar beynəlxalq birlik və ayrı-ayrı dünya dövlətləri tərəfindən də tanınıb, Bununla yanaşı azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə bağlı Avropa Məhkəməsinin də qərarları var. Belə olduğu təqdirdə Avropa Şurasının susması onların ikili standartlı fəaliyyətini göstərir".

E.Mirzəbəyli qeyd edib ki, Avropa Şurasının xüsusilə Türkiyə və Azərbaycana qarşı təzyiqlər etməsinin arxasında erməni diasporu dayanır: "Digər tərəfdən hər iki dövlətin bölgədə öz maraqlarından çıxış etməsi Avropa Şurasının ermənipərəst dairələri ciddi narahat edir. Hər iki ölkən ilk növbədə öz dövlət maraqlarını önə çəkdiyi, bu və digər dövlətlərin, eləcə də güc mərkəzlərinin heç bir avantürist oyunlarında iştirak etmədiyi üçün də çox zaman bu cür adekvat addımlarla, həqiqətəuyğun olmayan davranışlarla, böhtan və yalanlarla qarşılaşırlar".

## Musa Qasımlı: "Avropa Şurasının bu üslubu ikili standartların göstəricisidir"



"Beynəlxalq və regional təşkilatlarda, o cümlədən Avropa Şurasında çalışan bəzi şəxslər Azərbaycanla hökm, təzyiq dili ilə danışmamalıdırlar. Buna əsasları və haqları yoxdur". Bu fikirləri SİA-ya Milli Məclisin deputatı Musa Qasımlı Avropa Şurasının baş katibinin Azərbaycana qarşı iddialarına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, belə üslub anti-Azərbaycan qüvvələrin fəaliyyətinin təzahürü və ikili standartların göstəricisidir: "Azərbaycan ilə əməkdaşlıq etməkdə fayda var. Avropa Şurasında Azərbaycana qarşı çirkin oyun quranlar düşünməlidirlər ki, Avropa Şurası Azərbaycana çox lazımdır, yoxsa Azərbaycan bu quruma? Azərbaycan bu qurumsuz da yaşaya və daha yaxşı yaşayıb inkişaf edə, Avropa isə Cənubi Qafqaz kimi strateji əhəmiyyət kəsb edən regionda güclü tərəfdaşını və beləliklə öz maraqlarının təminatını itirə bilər".

M. Qasımlı bildirib ki, Avropa Şurası ən azı Rusiya ilə olan münasibətlərin təcrübəsini xatırlamalıdır: "Ümumiyyətlə, Yaqland Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən, sifarişlə müstəqil ölkələri hədəfə götürməyi sanksiyalaşdıran bir şəxsdir. Həm də Yaqland və ona bənzər bir neçə şəxs bütün Avropa Şurası demək deyil"- deyə, deputat əlavə edib.

# Azərbaycanın beynəlxalq reytinqlərdə irəliləməsi ölkəmizdə həyata keçirilən uğurlu islahatların göstəricisidir

***Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda ölkəmizin reytinqdə daha iki pilləyə yüksələrək 35-ci yerdə qərarlaşması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir. Göründüyü kimi, Azərbaycanın sürətli inkişafı təkcə ölkə daxilində deyil, xaricdə də maraqla izlənilir və beynəlxalq hesabatlarda öz əksini tapır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.***

Vüqar Rəhimzadə qeyd edib ki, hesabatda bir sıra mühüm məqamlar xüsusi olaraq diqqət çəkir: “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda qeyd edildiyi kimi, ölkəmiz dünya dövlətlərinin hər dördündən üçünü geridə qoyub, həmçinin MDB məkanında öz liderliyini qoruyub. Ən əsası isə G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi dövlətlər belə iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə ölkəmizdən geridə qalırlar. Hesab edirəm ki, bu faktlar son illər Azərbaycanda həyata keçirilən uğurlu islahatların göstəricisidir”.



Bu gün Azərbaycanın regionun ən güclü dövləti olduğunu vurğulayan YAP Siyasi Şurasının üzvü deyib: “Hər bir ölkənin gücü onun hərbi potensialı, iqtisadi imkanları, siyasi çəkisi və s. ilə ölçülür. Əminliklə deyə bilərik ki, qlobal layihələrin əsas iştirakçısı və təşəbbüskarı olan Azərbaycan böyük iqtisadi imkanlara malik olmaqla yanaşı, eyni zamanda, beynəlxalq aləmdə etibarlı əməkdaş, böyük dövlətlər üçün isə strateji tərəfdaşdır. Ən müasir hərbi texnika və texnologiyalarla təchiz edilmiş Milli Ordumuzun gücü isə ölkəmizin nə qədər böyük hərbi potensiala malik olmasından xəbər verir. Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda qeyd edilir ki, rəqabət qabiliyyəti reytinqində Rusiya 38-ci, Qazaxıstan 57-ci, Gürcüstan 67-ci və Ermənistan 73-cü sırada yer alıb. Bu göstəricilər qeyd etdiyim kimi, Azərbaycanın regionun ən güclü dövləti olması faktını bir daha təsdiqləyir”.

“İki sahil” qəzetinin baş redaktoru əlavə edib ki, son illər ölkəmizdə böyük islahatlar həyata keçirilir. “Sözsüz ki, bu islahatlar həyatın bütün sahələrini əhatə edir. Ancaq iqtisadiyyat sahəsindəki islahatları xüsusilə qeyd etmək lazımdır. Neft-qaz sənayesinin sürətli inkişafı, xüsusilə qeyri-neft sektorunda böyük artımların müşahidə edilməsi dövlətimizin başçısının uğurlu siyasətinin sadəcə bir hissəsidir. Milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi, sənaye məhəllələrinin yaradılması, eyni zamanda, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə həyata keçirilən tədbirlər, sahibkarlığın inkişafına göstərilən diqqət və s. Azərbaycanın tərəqqisinə mühüm töhfələrdir. Bu gün dünyada iqtisadi böhranın hökm sürdüyü bir vaxtda ölkəmizdə iqtisadi artımın müşahidə edilməsi və bu inkişafın beynəlxalq reytinqlərdə öz əksini tapması Prezident İlham Əliyevin gələcəyə hesablanmış məqsədyönlü siyasətinin göstəricisidir”.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, hesabatda ayrı-ayrı sahələr üzrə əksini tapan məqamlar artıq Azərbaycanın inkişaf etmiş ölkələr sırasına yüksəldiyini göstərir: “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda infrastruktur kateqoriyasında Azərbaycanın nəqliyyat sistemi 140 ölkə arasında 43-cü yerdə qərarlaşıb. Əmək bazarının səmərəliliyi kateqoriyasında “istedadların səmərəli istifadəsi” göstəricisinə görə Azərbaycan dünyada 17-ci pillədə qərarlaşıb. Bu göstəriciyə görə ölkəmiz İsrail, İrlandiya, Belçika, Avstriya və Estoniya kimi rəqiblərini üstələyib. Əmtəə bazarının səmərəliliyi indikatorunda Azərbaycan rəqabət elementi üzrə 32-ci, tələbin keyfiyyət şərtinə görə isə 31-ci yerdə gəlir. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən kompleks tədbirlər, uğurlu islahatlar Azərbaycanın iqtisadi imkanlarının daha da artmasına, beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir”.

# “Türkiyə dövləti Dağlıq Qarabağa qanunsuz səfər etmiş şəxslər barəsində ən ciddi tədbirlər görməlidir”

***“Təəssüf ki, Türkiyə vətəndaşları olan bir qrup şəxs Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edir və bu barədə Türkiyə dövləti heç bir tədbir görmür. Bu, ilk növbədə Türkiyə - Azərbaycan münasibətləri, Türkiyə və Azərbaycan arasındakı strateji əməkdaşlıq ruhuna yaraşmır”. Bunu APA-ya açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.***

Millət vəkili bildirib ki, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfər edən Türkiyə vətəndaşları təkcə Azərbaycanın əleyhinə deyil, həm də öz ölkələrinin əleyhinə fikirlər səsləndiriblər: “Türkiyə güclü dövlətdir və bu qanunsuz səfərlə bağlı mütləq tədbirlər görülməlidir. Bu cür hərəkətlər, bu cür addımlar birinci dəfə deyil. Bilirik ki, bir neçə dəfə bəzi türkiyəli jurnalistlər Azərbaycanın icazəsi olmadan işğal olunmuş ərazilərimizə səfər ediblər. Bu məsələnin bu şəkildə davam etməsi Azərbaycan ictimaiyyətində haqlı olaraq çox ciddi hiddət doğurub. Azərbaycan ictimaiyyəti bu səfəri şiddətlə qınayır. Ona görə də Türkiyə dövləti bu şəxslər haqqında ən ciddi tədbirləri görməlidir”.

H. Babaoğlunun sözlərinə görə, münasibətlər hər şeydən öncə qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanmalıdır: “Azərbaycan bu məsələdə çox həssasdır. Çünki Azərbaycanın əraziləri işğal olunub. Türkiyənin belə bir həssas, milli məsələsində azərbaycanlılar buna bənzər addımlar atsa, tutaq ki, Azərbaycanın bir qrup tanınmış şəxsi Cənubi Kipr respublikasına səfər edir və orada müxtəlif görüşlər keçirib anti - Türkiyə fikirlər səsləndirirsələr, görəsən Türkiyənin münasibəti necə olar? Türkiyə özünü Azərbaycanın yerinə qoymalıdır və buna əsasən də qərar qəbul etməlidir. Azərbaycan beynəlxalq təşkilatlarda, hər yerdə hər zaman Türkiyəni dəstəkləyib. 2016-cı ilin iyul ayında Türkiyədə qanuni hakimiyyətin hərbi yolla çevrilməsinə cəhd olunan zaman Azərbaycan prezidenti cənab İlham Əliyev öz qəti mövqeyini ortaya qoydu. Azərbaycan xalqı daima Türkiyənin yanında olduğunu bildirir. Ona görə də Azərbaycan ictimaiyyəti, Azərbaycan xalqı bu qətiyyəti Türkiyədən gözləyir. Türkiyə ya o şəxsləri özü cəzalandırsın, ya da beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərinə qeyri-qanuni səfər etdiklərinə görə onları ölkəmizə təhvil versin. Qoy biz onları cəzalandıraq. Burada mütləq cəza tədbirləri görülməlidir ki, bir də belə hallar təkrar olunmasın. Hazırkı vəziyyətdə Azərbaycan ictimaiyyəti bu məsələnin necə başa çatacağını gözləyir. Ümid edirik ki, Türkiyə dövləti bu şəxsləri ciddi şəkildə cəzalandıracaq”.



Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə APA-ya deyib ki, ziyalı adını daşıyan bəzi Türkiyə vətəndaşlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfər etməsi Azərbaycan ictimaiyyətində haqlı olaraq böyük hiddət və narahatlığa səbəb olub: “Biz ümidvarıq ki, Türkiyə dövləti bu şəxslər barəsində lazımı cəza tədbirlərini görəcək. Ermənistan həm Türkiyə, həm də Azərbaycanla bağlı düşmən mövqedədir. Digər tərəfdən, Ermənistan region və dünya üçün təhlükəli, terrorçu dövlətdir. Bütün bu sadaladıqlarımın fonunda Azərbaycanın işğal edilmiş ərazilərinə belə bir səfərin baş tutması birmənalı şəkildə lənətlənməlidir. Biz bu şəxslərin cəzalandırılmasını tələb edirik. Türkiyə dövləti onların cəzalandırılması istiqamətində addımlar atmalı və öz qəti mövqeyini ortaya qoymalıdır”.

V.Rəhimzadə qeyd edib ki, Türkiyə vətəndaşlarının Dağlıq Qarabağa qanunsuz səfərləri Türkiyə - Azərbaycan qardaşlığına ən böyük xəyanətdir: “Türkiyə dövləti, Türkiyə hökuməti və xalqı üçün bütün həssas məsələlərdə Azərbaycan öz dəstəyini əsirgəməyib. Ötən ilin iyul ayında Türkiyədə qanuni hakimiyyətin devrilməsinə cəhd olunan zaman Azərbaycan prezidenti cənab İlham Əliyev öz qəti mövqeyini ortaya qoydu, qardaş Türkiyəyə, onun dövlət başçısına dəstəyini ifadə etdi. İndi isə Türkiyədən olan bir qrup “ziya”lının iki ölkə arasındakı ənənələrə, dostluğa zidd olaraq Dağlıq Qarabağa səfər etməsi xəyanətdən başqa bir şey deyil. Biz Türkiyədən bu xəyanətin qarşısını almağı, bu xəyanətkarların lazımi qaydada cəzalandırılmasını, hətta lazım gələrsə onların Azərbaycana təhvil verilməsini gözləyirik. Yenə qeyd edirəm ki, bu səfər Türkiyə - Azərbaycan dostluğuna böyük bir zərbədir. Azərbaycan mərdi-mərdanə Türkiyə ilə dostluğuna sadiq olub. Amma təəssüflər olsun ki, Türkiyə vətəndaşlarının erməni işğalı altındakı Dağlıq Qarabağa səfər etməsi Türkiyə - Azərbaycan münasibətlərinə xələl gətirir”.

Qeyd edək ki, sentyabrın 22-də Türkiyədən olan bir qrup ziyalı - Əli Bayramoğlu, Səid Çəkinoğlu, sabiq millət vəkili “Yaşıllar və Sol Gələcək Partiyası”nın rəsmisi Ufuk Uras, yazıçı və aparıcı Erol Katırçıoğlu “Qərbi Ermənistan Konqresi” adlanan təşkilatın təşəbbüsü ilə Dağlıq Qarabağa qeyri-qanuni səfər edib, qrup üzvləri anti-Azərbaycan və anti-Türkiyə xarakterli, ermənipərəst fikirlər səsləndiriblər.

## Bakıda Gənclər Film Festivalı keçiriləcək




Oktyabrın 1-də “CinemaPlus Azerbaijan” kinoteatrında ABŞ-ın ölkəmizdəki səfirliyi, “Desperado” musiqi məktəbi və “Azerbaijan Alumni Association”un dəstəyi ilə 4-cü Azərbaycan Gənclər Film Festivalı keçiriləcək. “CinemaPlus Azerbaijan” kinoteatrından AZƏRTAC-a bildirilib ki, oktyabrın 3-dək davam edəcək festivalda Azərbaycan, Amerika və Avropa istehsalı olan ekran əsərləri nümayiş etdiriləcək. Eyni zamanda, festivalda gənc rejissorların qaçqınlara həsr olunmuş filmləri göstəriləcək. Festival çərçivəsində ustad dərslərinin təşkili də nəzərdə tutulur.

# İslam dünyasında yaşanan proseslər müsəlman ölkələri arasında əməkdaşlığı daha da gücləndirir

***Azərbaycanın dünya təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətlərinin inkişafı çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına üzv olması da öz müsbət nəticəsini verir. Müsəlman ölkələrinin sərhəd toxunulmazlığının təmin olunması və qorunması, münaqişələrin həlli və qarşısının alınması, sabitliyin bərpası və inkişaf istiqamətlərinin müəyyən edilməsinə dair müzakirələr aparılır və bununla bağlı qərarlar qəbul olunur.***




Bu faktdır ki, Azərbaycanın fəal üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı dünyada islam həmrəyliyi işinə töhfələr verir. Hələ müstəqilliyimizin ilk illərində erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin islam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu qeyd edilməlidir. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqeyini diqqətdə saxlayaraq, inşalçı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı yekdil və birmənalı qərarlar qəbul etmişdir. İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" kimi qətnamələr qəbul edilib.

Artıq neçə ildir ki, ardıcıl olaraq keçirilən İslam Əməkdaşlıq Təşkilatının Sammiti də mühüm əhəmiyyət daşıyır. Sammit çərçivəsində müsəlman ölkələrindəki qarşıdurmalara nəzər salınır, həll yollarına diqqət yetirilir. İƏT-in İstanbul Sammiti digər müsəlman ölkələrindəki münaqişələr kimi, Dağlıq Qarabağ problemini də diqqətdə saxlayıb. Ötən il İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində - "Ədalət və sülh üçün birlik və əməkdaşlıq" devizi ilə keçirilən Zirvə toplantısında təcavüzkar Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasətindən söz açılıb. İştirakçı dövlətlər tərəfindən də təcavüzkar Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasəti pislənilib.

## İSLAM DÜNYASI ÇƏTİN SINAQLARLA ÜZLƏŞİR

Sentyabrın 10-da Qazaxıstanın paytaxtı Astanada İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə Birinci Sammiti də Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ötən ilin aprelində İƏT-in İstanbulda keçirilən XIII Zirvə toplantısında irəli sürdüyü təşəbbüsə əsasən təşkil olunub. İƏT-in elm və texnologiya üzrə Birinci Sammitində təşkilata üzv olan 57 ölkənin dövlət və hökumət başçıları, elm və texnologiya məsələləri üzrə məsul nazirlər, müşahidəçi ölkələrdən, eləcə də, beynəlxalq təşkilatlardan 80-dək nümayəndə heyəti iştirak edib.

Müasir dövrdə cəmiyyətin tərəqqisində mühüm rol oynayan elm və texnologiyanın islam ölkələrində inkişaf etdirilməsinə həsr olunan Sammit, məhz qəbul olunan qərarların müsəlman ölkələrində bu sahələrin inkişafı sahəsində görülən işlərə böyük təkan olacaq. Sammitdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə Birinci Sammitinin keçirilməsini yüksək qiymətləndirib. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu və son bir neçə ildə Azərbaycanda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşünün keçirildiyini bildirib. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Azərbaycan Prezidenti İƏT-in də, öz növbəsində, Azərbaycana böyük dəstək göstərdiyini və ölkəmizin apardığı siyasətə yüksək qiymət verdiyini vurğulayıb: "İƏT daim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən ədalətli mövqe nümayiş etdirib və Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir çox qətnamələr qəbul edib. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə Ermənistanın Azərbaycana qarsı təcavüzü ilə əlaqədar Təmas Qrupu yaradılmışdır. Biz bu qərarı çox yüksək qiymətləndiririk və bu ədalətli mövqeyə görə İƏT-ə və onun üzvlərinə təşəkkürümüzü bildiririk".

## "BİZ DÜNYANIN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ BAŞ QALDIRAN İSLAMOFOBİYAYA QARŞI FƏAL MÜBARİZƏ APARIRIQ"

Sammit Azərbaycan həqiqətləri ilə islam dünyasını bir daha tanış etmiş oldu. Dağlıq Qarabağın Azərbaycanın tarixi parçası olduğu bir daha bəyan edildi. İşğal nəticəsində bizim 1 milyondan artıq qaçqın və məcburi köçkünümüz yaranıb. Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq zamanın çağırışı kimi səsləndi. Terrorizm aktlarını törədənlər isə, mütləqdir ki, qanun qarşısında cavab versinlər.

Sammitdə, həmçinin, Azərbaycanın dinamik inkişafı, sülsevər dövlət olması da diqqətə çəkilib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması da elə islam dünyasına bir töhfə oldu: "Biz dünyanın müxtəlif bölgələrində baş qaldıran islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Biz müsəlmanlara qarşı törədilən cinayətləri, xüsusilə də, son vaxtlar Myanmada Rohingiya müsəlmanlarına qarşı həyata keçirilən qətliam və kütləvi zorakılıq hallarını qətiyyətlə pisləyirik. Biz beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, siyasi və dini liderləri Myanmada baş verən hadisələrin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırırıq. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, sentyabrın 8-də Azərbaycan Rohingiya qaçqınlarına humanitar yardım - 100 ton ərzaq məhsulu göndərmişdir".

## ASTANA BƏYANNAMƏSİ İSLAM DÜNYASININ ELMİ VƏ TEXNOLOJİ İNKİŞAFI ÜÇÜN SİYASİ DƏSTƏK PROSESİNİN BAŞLANĞICIDIR

"Azərbaycan bundan sonra da İƏT-in fəal üzvü kimi islam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcək", deyən Prezident İlham Əliyev Azərbaycanın müsəlman ölkələrinin inkişafında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini bildirib.

Tədbirdə islam dünyasının elmi və texnoloji inkişafı üçün siyasi dəstək prosesinin başlanmasını nəzərdə tutan Astana Bəyannaməsi qəbul edilib.

Sammitdə son zamanlar islam dünyasının çətin sınaqlarla üzləşdiyi, müsəlman ölkələrində ekstremist və terrorçu təşkilatların yayıldığı təəssüf hissi ilə qeyd edilib. Diqqətə çatdırılıb ki, bundan daha çox islam ölkələri əziyyət çəkir. Eyni zamanda, bu, Qərb ölkələrində islamofobiya meyillərinin, eləcə də, müsəlmanlara qarşı zorakılığın artmasına səbəb olur. Təbii ki, islam dünyasında son zamanlar yaşanan proseslər müsəlman ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir.

**Nəzakət ƏLƏDDİNQIZI**

## İqtisadiyyat Nazirliyi əczaçılıq zavodu ilə anlaşma memorandumu imzalayıb



Azərbaycan İqtisadiyyat Nazirliyi və "Hayat Pharm" MMC əczaçılıq sənayesinin yaradılması və inkişafı ilə bağlı anlaşma memorandumu imzalayıb. SİA-nın məlumatına görə, imzalanma mərasimi Bakıda davam edən Azərbaycan Beynəlxalq Səhiyyə "BIHE 2017" sərgisində baş tutub. Sənədi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov və "Hayat Pharm"ın baş direktoru Ramin Hacıyev imzalayıb. Qeyd edək ki, "Hayat Pharm" ilk əczaçılıq zavodu Azərbaycan-Rusiya birgə layihəsidir. Rusiya tərəfdən bu layihədə "R-Farm" iştirak edir.

## Nazir müavini: "10 mindən çox dərman preparatının qiymətləri tənzimlənib"



"Azərbaycanda qeydiyyatda olan bütün dərman preparatlarının qiyməti tənzimlənib. Söz yox ki, bu, daim rotasiya olunan, təkrarlanan prosesdir. Bəzi preparatların qeydiyyatının vaxtı qurtarır, yeni preparatlar qeydiyyata düşür və proses davam etdirilir". SİA-nın məlumatına görə, bunu səhiyyə nazirinin müavini Elsevər Ağayev deyib. Nazir müavini qeyd edib ki, ümumilikdə Tarif (qiymət) Şurası tərəfindən Azərbaycanda demək olar ki qeydiyyatda olan bütün dərman preparatlarının qiymətlərinə baxılıb və vahid qiymət qoyulub: "Artıq 10 mindən çox dərman preparatının qiymətləri dövlət tərəfindən tənzimlənib".

Nazir müavini ölkədə əczaçılığın inkişaf prespektivlərindən də danışıb: "Son illərdə İqtisadiyyat və Səhiyyə Nazirlikləri bu sahədə böyük işlər görüb. Dünyanın aparıcı şirkətləri və mütəxəssisləri ilə danışıqlar aparılıb. Ölkədə əczaçılıq sahəsində ixtisaslaşan Pirallahı Sənaye Parkı yaradılıb. Bu gün bu sərgidə həmin parkın üç rezidenti - "Hayat Pharm", "Diamed" və "Caspian Pharmed" iştirak edir

## İspaniya portalı Azərbaycanda turizmin inkişafından yazır



İspaniyanın www.porconocer.com portalında "Azərbaycan turizm sektorunun inkişafında maraqlıdır" sərlövhəli məqalə dərc olunub. Məqalədə bildirilir ki, Azərbaycanda turizm sektorunun əla inkişaf etməsi bu ölkəyə səfər edənlərin sayının çoxalmasına səbəb olub. Yazıda qeyd olunur ki, Azərbaycan əsrarəngiz təbiət mənzərələri, unikal landşaftı, qonaqpərvər insanları ilə turistləri cəlb edir. Bu səbəbdən də Qətər, Ukrayna, Rusiya, Hindistan, Hollandiya, Fransa və Çin kimi ölkələrdən Azərbaycana daha çox turist axınının olacağı gözlənilməkdir.

## "Bu, erməni lobbisinin yeni təxribatıdır"

"Türkiyədən olan bir qrup ziyalının "Qərbi Ermənistan Konqresi" adlanan təşkilatın təşəbbüsü ilə Dağlıq Qarabağa səfər etməsi, qrup üzvlərinin anti-Azərbaycan və anti-Türkiyə xarakterli, ermənipərəst fikirlər səsləndirməsi təxribat xarakterlidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Asim Mollazadə deyib. Onun sözlərinə görə, bu hadisə Azərbaycan ictimaiyyətində təəccüb, böyük narahatlıq və hiddətlə qarşılanıb və belə bir addım təhlükəli bir addımdır: "Bu cür şəxsləri ziyalı adlandırmaq çox çətindir. Türkiyədə belə hərəkətlərə dözgün qiymət verməyə qadir olan insanlar var və həmin insanlar bu ziyalıların hərəkətinə qiymət verəcəklər. Düşünürəm ki, bu Erməni lobbisinin yeni təxribatlarından biridir. Təəsüflər olsunki türkiyə vətəndaşlarının arasında da belə təxribata qoşulan insanlar var. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı Türkiyə hökumətindən ciddi tədbirlər görülməsini səbrsizliklə gözləyir".

# Trampın istefası: tərəfdarları prezidenti tərk edirlər



***Amerikanın yeni dövlət başçısı Donald Trampın çətin günləridir. Bir zamanlar ona inanıb dəstəkləyən və müxtəlif sferalarda nüfuz sahibi olan şəxslər artıq kənara çəkilirlər. Avqust ayının yalnız bir həftəsində bir neçə vəzifəli şəxs istefa verib. Bu prosesin davam edəcəyini düşünənlər var. Və sonda D.Trampın özünün hakimiyyətdən çəkilməyə məcbur qalacağı proqnozlaşdırılır. Hazırda Amerika cəmiyyəti prezidentlə bağlı yaranmış situasiyadan narahatlığını ifadə edir. Onların sırasında sənət adamlarından təşkil edilmiş qrupun üzvləri də vardır. Onlar mədəniyyət və təhsilə dövlət başçısının lazımi dəstək vermədiyini, əlavə olaraq, insan haqları sahəsində kifayət qədər demokratik davranmadığını ifadə edirlər. Bütün bunların fonunda ABŞ-ın yeni prezidentinin istefa verəcəyi təxmin edilir. Hətta onun bu ilin sonuna qədər baş verəcəyi bildirilir.***

## Prezident səhvlərinin bədəli: **Trampın ağır günləri**

Amerikada prezident Donald Trampla bağlı qalmaqal səngimək bilmir. Getdikcə daha çox qurum və tanınmış adamlar onun istefa verməsini tələb edir. Son günlər bu istiqamətdə yeni fikirlər səsləndirilir. Onların sırasına Trampın kitabını yazan adam da qoşulub. O, "Twitter" səhifəsində prezidenti tənqid edib və istefa verməyə çağırıb. Hətta proqnoz verərək, bu ilin sonuna qədər D.Trampın prezidentlikdən gedəcəyini vurğulayıb.

Bir qədər əvvəl isə seçki marafonunda D.Trampa dəstək verən ABŞ-ın zəngin insanlarının yaratdığı qrup da istefa verdiyini açıqlayıb. Onların sırasında milyarder (var-dövləti təqribən 17 milyard dollar təşkil edir), Wall Street yatırımçısı Karl Aykan da vardır. O, Trampa yazdığı məktubda Amerikada son dövrlərdə özünü göstərən zorakılıq, terror, ayrı-seçkilik və antidemokratik qərarlara etiraz etdiyini ifadə edib. Xatırladaq ki, K.Aykanın daxil olduğu iş adamları qrupu D.Trampın yaratdığı məsləhət qrupunu təşkil edir. Bununla bütövlükdə iş adamları qrupu istefa vermiş oldu.

NBC ve "New York Times"ın iddiasına görə, strateji məsələlər üzrə prezident köməkçisi Stiven Bennon Ağ evdəki işinə son verib. Bu barədə hələlik rəsmi açıqlama olmasa da, administrasiyadakı mənbələr onu təsdiqləyiblər. Maraqlıdır ki, S.Bennon Trampın seçkisində ciddi rol oynamışdı.

Nəhayət, D.Trampa bir zərbə də mədəniyyət və təhsil üzrə Prezident Komitəsindən vurulub. Onun 17 üzvündən 16-sı istefa ərizəsi yazıb. Xatırladaq ki, bu Komitə 1982-ci ildə Ronald Reyqan tərəfindən yaradılıb. Əsas məqsəd elm, mədəniyyət və təhsil üzrə xüsusi proqramlar həyata keçirməklə həmin sferaların inkişafını stimullaşdırmaqdan ibarətdir. D.Tramp da özünün lazım bildiyi ziyalılardan həmin Komitəni formalaşdırmışdı. İndi onlar birbaşa D.Trampın yeritdiyi siyasətə etiraz olaraq vəzifələrindən gediblər.

Yuxarıda vurğulanan məqamlar onu göstərir ki, ABŞ prezidentinə qarşı etiraz dalğası genişlənir və dərinləşir. D.Trampı bir-birinin ardınca tərk edənlər bir qayda olaraq bir neçə faktı qeyd edirlər. İlk olaraq, Şarlottsvilldə ultrasağçılarla ultrasolçuların toqquşması ilə bağlı yaranmış situasiya göstərilir. Orada bir nəfər həlak olmuş, şəhərdə ciddi surətdə iğtişaşlar baş vermişdi. Maraqlıdır ki, D.Tramp bu hadisədə ultrasağçıların günahının olmadığını bəyan etmişdi. Yəni faktiki olaraq irqçiliyi, zorakılığı, şovinizmi dəstəkləmiş, ağdərililərin imtiyazlı olmasını dolayısı ilə ifadə etmişdi.

D.Trampın bu fikirləri Amerikada ciddi etirazlar yaratdı. Müxtəlif sosial təbəqələrə aid olan, cəmiyyətdə nüfuz sahibləri, sənət və elm adamları belə bir vəziyyətlə barışmayacaqlarını bildiriblər. Onlar Amerikada irqçiliyə, antidemokratik əhval-ruhiyyəyə yol verməyəcəklərini deyiblər.

Digər məsələ KİV-ə olan hücumlarla bağlıdır. Son vaxtlar D.Tramp jurnalistlərin fəaliyyətini məhdudlaşdıra biləcək fikirlər səsləndirib. O, Rusiya məsələsində mətbuatın qərəzli mövqe tutduğundan danışıb. Bu isə Amerikada fikir azadlığına qarşı atılmış addım kimi qiymətləndirilir.

Başqa bir məsələ D.Trampın İqlim üzrə Paris müqaviləsindən çıxması ilə əlaqəlidir. Bu qərara dünyada etiraz çox oldu. Ancaq Tramp öz mövqeyindən çəkilmək istəmir. O, iqlim məsələsini böyük dövlətlərin oyunu kimi qələmə verir. Müxtəlif müraciətlərin olmasına baxmayaraq, D.Tramp qərarını dəyişmək fikrində olmadığını bildirib.

## Demokratiya və irqçilik: **toqquşan dəyərlər**

Daha bir məsələ mədəniyyət və təhsil üzrə proqramların maliyyələşməsinin ixtisarı ilə bağlıdır. Donald Tramp onların bir qismini lazımsız sayır. Büdcənin indiki vəziyyətinin bir sıra proqramların reallaşmasına imkan vermədiyini deyir. Həmin sırada xüsusi təhsil proqramları da vardı ki, dünyanın müxtəlif regionlarında amerikan dəyərlərinin yayılmasına xidmət edirdi. Bu kimi məqamlarla bağlı olan təhsil layihələrinin ixtisara salınmasını Amerika cəmiyyəti qəbul etmir.

Amerika prezidentinə tutulan iradlar sırasında bir sıra ölkələrdən, əsasən, müsəlman dövlətlərindən olan insanların ölkəyə girişinə qadağa qoyulması da var. Bunu ABŞ-da birbaşa insan haqlarına olan qəsd kimi qiymətləndirir, belə qadağalarla nəticə əldə etməyin mümkün olmadığını deyirlər. Doğrudan da, D.Tramp hakimiyyətə gəldikdən sonra Amerikada terror və zorakılıq halları daha da artıb. Bu proses getdikcə dərinləşir. Üstəlik, ABŞ cəmiyyətinin özündə radikalizm, başqalarını qəbul etməmək kimi hallar vüsət alır. Ultramillətçilər və irqçilər fəallaşırlar. Şarlottsvilldəki hadisə buna misaldır.

İnsan haqlarının pozulması kimi qiymətləndirilən başqa bir hadisə D.Trampın cinsini dəyişmiş insanların orduda xidmətini qadağan etməsi ilə əlaqəlidir. Bir tərəfdən, seksual azlıqların hüquqlarını bütün dünyada qoruduqlarını bəyan edən Qərb siyasətçiləri, başqa ölkələri bu məsələdə ittiham edirlər, digər yandan isə özlərinə uyğun gəlməyən məqamlarda insan haqlarını kobudluqla pozurlar. Cinsini dəyişmiş insanların orduda xidmətdən uzaqlaşdırılmasını Amerika elitası məhz bu cür qiymətləndirir. Hesab edilir ki, ABŞ dünyanın ən güclü demokratik qaydaları olan ölkəsi olaraq qalmalıdır.

Nəhayət, istefa verənlər D.Tramın Şimali Koreyanı nüvə savaşı ilə hədələməsinə etirazlarını bildiriblər. Onlar vurğulayırlar ki, Pxenyan nə etsə də, ABŞ güc tətbiq etməməli, xüsusilə xalqı məhv etməklə hədələməməlidir. D.Tramp Şimali Koreya rəhbərliyi ilə yanaşı, xalqın da ciddi zərbə alacağını, hətta görünməmiş vəziyyətə düşəcəyini demişdi.

Göründüyü kimi, iradlar kifayət qədər ciddidir. Bunlardan başqa, D.Trampın Rusiya hakimiyyət dairələri ilə gizli əlaqəsi barədə yayılan söz-söhbəti də kənara qoymaq olmaz. Bir sıra ekspertlər hesab edirlər ki, yaxın aylarda bu məsələ ilə bağlı prezidentə qarşı ittihamlar irəli sürülə bilər. Əgər bu, baş versə, Amerika üçün çox ağır bir vəziyyət yaranacaq. Vaşinqtonun bütün müdafiə sisteminin kifayət qədər səmərəli işləmədiyi barədə təsəvvürlər təsdiqini tapmış olacaq.

Yuxarıdakı təhlillər onu göstərir ki, dünya növbəti siyasi qalmaqalın şahidi ola bilər. ABŞ dünyanın ən güclü və zəngin ölkəsi olaraq qalır və onunla bağlı baş verən hər bir hadisə qlobal səviyyədə həssaslıqla qarşılanır. Əgər D.Trampın istefası reallaşsa, dünya ictimaiyyəti Vaşinqtonun hansı mövqeni tutacağını maraqla gözləyəcək. Adətən bu cür dəyişikliklərdən sonra siyasi kursda düzəlişlər olur. Onlar nələri əhatə edəcək? Ümumiyyətlə, dünyanın indiki mürəkkəb vəziyyətində Amerika nə dərəcədə demokratiya ənənələrini milli maraqlardan üstün tuta biləcək?

Bütün bunlar təbii ki, qeyri-müəyyənlikləri göstərən məqamlardır. Onların fonunda Amerikanın siyasi səhnəsində riskli proseslərin cərəyan etdiyini görmək mümkündür. Bu, bir tərəfdən, ABŞ-ın dünyadakı geosiyasi nüfuzuna neqativ təsir göstərəcəksə, digər tərəfdən başqa güclərin daha da fəallaşmasına imkan yaradacaq. Çünki aydın olur ki, Amerika üzərinə düşən geosiyasi-diplomatik vəzifənin öhdəsindən gələ bilmir. Təkcə D.Trampın Şimali Koreyanı hədələməsini xatırlatmaq yetərlidir. Çünki Pxenyanı dəstəkləyən böyük dövlətlər də var. Hətta bir sıra ekspertlər bu oyunun arxasında hansı maliyyə qruplarının dayandığını da qeyd edirlər. Yəni D.Tramp haradasa korporativ maliyyə maraqlarına uyğun addımlar atır.

Etiraf edək ki, bunlar həqiqət olmuş olsa, bütün dünya üçün daha çətin vəziyyət yaranmış olacaq. Bu aspektdə D.Trampın istefası yalnız Amerikada demokratiya və insan haqlarının taleyi ilə bağlı görünmür. Pərdə arxasında hansı qrupların at oynatdığı daha böyük və mürəkkəb məsələ kimi qarşıya çıxır.

**Newtimes.az**

# Azərbaycan orbitdə telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir

***Azərbaycanın dövlət müstəqilliyinin yaşı tarix üçün, o qədər də böyük olmayan bir zaman məsafəsini əhatə etsə də, bu zaman kəsiyində, ölkəmiz dünyanı həyatın bütün sferalarında əldə etdiyi uğurlarla və nailiyyətlərlə heyrətləndirir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının uğurla həyata keçirilməsinin töhfələri hər birimizdə həm də qürur və iftixar hissi yaşadır.***



Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları, eləcə də, islahatlar həyata keçirib. Belə ki, Azərbaycan Prezidentinin 2005-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Qeyd edilən bu Sənəd ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu. Azərbaycan Prezidentinin "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin yaratdı.

Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur. Prezident İlham Əliyev tərəfindən 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı və həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Sözsüz ki, bu, Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin nümunəsidir. Eyni zamanda, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb.

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti olaraq tarixə düşdü. Azərbaycan Prezidenti Cənab İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxışında "Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri - "Azerspace" və "Azersky" və bu yaxınlarda buraxılacaq "Azerspace-2" adlanan üçüncü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi", - deyərək ölkəmizə bu sahədə qazanılan uğurları iştirakçı dövlətlərin diqqətinə çatdırıb. Bütün bu uğurlar ölkəmizdə elmi-texniki və iqtisadi qüdrətin təntənəsidir. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti İlham Əliyev bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

Artıq uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də, Livan, əfqan, ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır və regionda kifayət qədər tanınıb.

Təbii ki, bu uğurların əldə olunmasına ölkəmizdəki siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması imkan yaradıb.

***ZÜMRÜD***

## Sədaqət Vəliyeva: "Azərbaycanın inkişafı və nailiyyətləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilir"



"Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşması bir daha təsdiqlədi ki, ölkəmizin inkişafı və nailiyyətləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilir". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib: "Azərbaycanın dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq, MDB-də liderliyini qoruması, İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi ölkələri də iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə qabaqlaması onu sübut edir ki, respublikamız ən rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkəyə çevrilib".

"Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sosial-iqtisadi islahatların nəticəsində iqtisadiyyat liberallaşdırılır, şaxələndirilir, bunun nəticəsi olaraq, kiçik və orta sahibkarlıq inkişaf edir, qeyri-neft sektorunun ümumi daxili məhsulda çəkisi getdikcə artır, ölkə iqtisadiyyatına daha çox daxili və xarici sərmayələrin cəlb edilməsi üçün əlavə imkanlar yaradılır" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Azərbaycan bundan sonra da dinamik inkişafını davam etdirəcək, beynəlxalq hesabatlarda irəliləyəcək və G20 ölkələrinin səviyyəsinə çata biləcək.

## Qəbul imtahanlarında açıq sualların sayı çox olacaq



"Azərbaycanda 2 ildən sonra tətbiq ediləcək yeni növ qəbul imtahanlarında açıq tipli test suallarının sayı daha da çox olacaq". SİA məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib. Onun sözlərinə görə, imtahanda bu suallarla yanaşı, müxtəlif növ tapşırıqlar və yazı işləri də tətbiq ediləcək: "İki ildən sonra buraxılış imtahanları verən XI sinif məzunları yeni növ imtahanlarında iştirak edəcək. Buraxılış imtahanları 3 fəndən Ana dili, Riyaziyyat və Xarici dildən (ingilis, fransız, alman dili) olacaq. Bununla bağlı dünyada olan təcrübə öyrənilir".

M.Abbaszadə qeyd edib ki, son 20 il ərzində kütləvi imtahanlarda yalnız qapalı test istifadə edilirdi. Son 10 ildə hər bir fənn blokunda 1-2 açıq ipli sualdan başlayaraq, bu il hər bir fəndən 5 olmaqla açıq tipli test sualları istifadə edilib: " Yeni imtahanlarda belə sualların sayı daha da çox olacaq. Bu suallarla yanaşı imtahanlarda təkcə açıq tipli suallar yox, müxtəlif yazı işləri, müxtəlif növ tapşırıqlar da tətbiq ediləcək. Amma bunu tətbiq edəndə Azərbaycanın reallığını, təhsil sistemindən bunun mümkünlüyünü və praktik olaraq imtahanın təhlükəsizliyini necə qorumaq lazım olduğunu düşünməliyik. Yeni tip tapşırıqların tətbiqi ölkədə təhsil sistemində 9 il əvvəl kurikulum sisteminə keçid, yeni standartların tətbiqi ilə əlaqədardır. Buna əsasən imtahanlar da yeni tapşırıqlara, yeni sistemə əsasən aparılacaq".



## Səkkiz ayda avtomobil benzininin istehsalı 7 faiz artıb

Səkkiz ayda avtomobil benzininin istehsalı 7 faiz artıb. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, bu ilin yanvar-avqust aylarında neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 1 milyard 748,9 milyon manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz azalıb. Neft məhsullarından avtomobil benzininin istehsalı 7 faiz, neft koksunun istehsalı 13,3 faiz, neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı 3,8 faiz, neft bitumunun istehsalı 16,1 faiz, sürtkü yağlarının istehsalı isə 3 dəfə artıb. Hesabat dövründə dizel yanacağının istehsalı 18,5 faiz, yanacaq mazutunun istehsalı 39,5 faiz, ağ neftin istehsalı isə 5,9 faiz azalıb.

## İsa Həbibbəyli: Kolumbiyada Azərbaycan ədəbiyyatının tanıdılmasına ehtiyac var

Sentyabrın 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda kolumbiyalı yazıçı, professor Konrado Zuluaqa ilə görüş təşkil olunub. AZƏRTAC xəbər verir ki, görüşdə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli rəhbərlik etdiyi elmi müəssisənin inkişaf tarixindən, beynəlxalq əlaqələrindən danışıb. Bildirilib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Ədəbiyyat İnstitutunun beynəlxalq əlaqələri sürətlə inkişaf etməkdədir. Kolumbiyalı yazıçı ilə görüşün bu elmi müəssisənin xarici əməkdaşlığının genişləndirilməsi baxımdan əhəmiyyəti böyükdür. Çünki bu tədbirlə Azərbaycan-Kolumbiya ədəbi əlaqələrinin əsası qoyulur. Akademik bu gün qurulan əməkdaşlığın uğurla davam edəcəyinə əminliyini bildirib.

## Azərbaycanda 563 otel fəaliyyət göstərir



Azərbaycanda bu gün 563 otel fəaliyyət göstərir. Vətəndaşlarımızın kredit kartlarının xaricdə vəsait xərcləri Azərbaycanda xarici turistlərin xərclədiyi vəsait xərcləri ilə müqayisədə 100 min manat aşağıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Dünya Turizm Gününə həsr olunmuş tədbirdə deyib. Nazir bildirib ki, cari ilin 8 ayında xarici turistlər ölkəmizdə 1 milyon 300 min manat vəsait xərcləyib. Yerli turistlərimizin 8 ayda xarici ölkələrdə xərclədiyi məbləğ isə 1 milyon 200 min olub. Ə. Qarayevin sözlərinə görə, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin icrasından irəli gələn tapşırıqlar lazımi səviyyədə yerinə yetirilir.

# Hər bir ömür bir tale dastanıdır - yaza bilənə...

*Gözəl insan, unudulmaz ziyalı və tarix yazmış prokuror Xanoğlan Şıxəliyevə ithaf olunur*

***Belə bir deyim var: hər bir ömür bir tale dastanıdır - yaza bilənə. Əlbəttə, hər bir ömür, hər bir tale dastan kimi yazıla bilməz. Çünki bunun üçün insan elə bir şərəfli, əqidəli, mənəviyyatlı və ləyaqətli həyat yolu keçməlidir ki, bu yol gələcək nəsillər üçün bir örnək, bir həyat məktəbi olsun. Müstəqil Azərbaycanımızın torpağı elə bir ilahi xəmirlə yoğurulub ki, tarixlər boyu qeyd olunan kateqoriyalara məxsus ziyalılar, elm adamları, neçə-neçə şəxsiyyətlər yetişdirib. Məhz haqqında söhbət açacağımız və bəhs edəcəyimiz Azərbaycanın tanınmış övladı da belə şəxsiyyətlərdəndir - hazırda haqq dünyasına qovuşmuş dəyərli insan Xanoğlan Rza oğlu Şıxəliyev...***

Xanoğlan Şıxəliyev 1957-ci ildə Ermənistan SSR-in Vedibasar rayonunda dünyaya göz açıb və Qərbi Azərbaycan elinin qəhrəmanlar diyarı sayılan bu eldə, bu obada həyatının ilkin addımlarını atıb. Sonralar mənfur ermənilərin Azərbaycan xalqına qarşı qurduqları çirkin və məkrli planlarına əsasən, Kreml rəhbərliyinin qərarı ilə Azərbaycana deportasiya edilən ailələr içində Şıxəliyevlər ailəsi də olub. Bu ailə Sabirabad rayonunda yerləşib. Ümumiyyətlə, keşməkeşli, ağır həyatına baxmayaraq, uşaqlıq illərində qarşılaşdığı çətinliklərə rəğmən, qətiyyət, dözüm və mətanət məktəbini keçən Xanoğlan müəllimə həmin məktəb sonrakı illərdə böyük dəstək oldu...

Xanoğlan Rza oğlu Şıxəliyev aldığı ali təhsilinin ardınca, enişli-yoxuşlu həyatın təlatümlü, bəzən xoş, bəzən də əks olan ağuşuna atıldı. Onun seçdiyi yol isə heç də asan bir yol deyildi. 1977-ci ildən ta həyatdan köçərək, haqq dünyasına qovuşana - 30 iyun 2015-ci ilə qədər prokurorluq orqanlarında müxtəlif vəzifələrdə çalışmış Xanoğlan müəllim, həm də ailəsinə və övladlarına bağlılığı ilə seçilən gözəl ata olub.

Müstəqilliyimiz əldə olunandan sonra - Azərbaycan Respublikasının həmin illərdə çox və çətin anlar yaşadığı bir zamanlarda Xanoğlan müəllim çətin və böyük zəhmət tələb edən vəzifə borcunu yerinə yetirib. Hələ o dövrlərdə istər ictimai-siyasi, istərsə də kriminogen baxımından, elə də sabit olmayan Şəki rayonunda çalışmış Xanoğlan Şıxəliyev qanunun aliliyinin təminatçısı kimi dəfələrlə sinəsini qabağa verib. Hətta elə olub ki, azğınlaşmış şəxslər onun yaşadığı evə hücümlar çəkib, üzərinə avtomat silahı qaldırıblar. Lakin dövlət və xalq maraqlarını daim üstün tutan Xanoğlan müəllim, həm də prokuror olaraq heç nədən qorxmamış, azğın kriminogen qüvvələrə qarşı mübarizəsini daha barışmaz şəkildə aparmışdı. Bu, onun qanında axan qorxmazlıq və cəsarət geninin məntiqi təzahürü idi!

Xanoğlan müəllim prokurorluq fəaliyyətini Bərdə rayonunda davam etdirərkən, çox çətin sınaqlardan keçir. Çünki o zamanlar birinci Qarabağ müharibəsinin qızğın vaxtları idi. Ancaq onun təcrübəsi və peşəkar iş fəaliyyəti prokurorluq vəzifəsinə əlavə vəzifə də qoymuşdu. Belə ki, o, həm də müdafiə şurasının üzvü olaraq dəfələrlə döyüş bölgələrində düşmənlə üz-üzə gəlmiş, təhlükəli şəraitlərdə Vətən borcunu yerinə yetirmişdi. Ön cəbhədə yerləşən mülki sahələr, evlər mənfur düşmənin atdığı "Qrad" və s. ağır artilleriya zərbələri nəticəsində dağılır, insanlar öz doğma yurd-yuvalarından məhrum olurdular. Belə bir vaxtda Xanoğlan müəllimin qeyrəti yol vermirdi ki, qadınlar, qocalar və uşaqlar evsiz-eşiksiz yaşasınlar. Ona görə də, o öz evinin qapılarını onların üzərinə açır, yedirib-içirir, qayğılarına qalırdı. Ümumiyyətlə, 95 min məcburi köçkünün məskunlaşdığı bir şəraitdə, Bərdə rayonunun hüquq-mühafizə orqanları tərəfindən görülən tədbirlər nəticəsində, xüsusilə, prokuror Xanoğlan Şıxəliyevin səylərinə görə həmin bölgədə ciddi narahatçılıqlara yol verilmirdi.

Onu da deyə bilərik ki, Xanoğlan Şıxəliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ideologiyasını ən yüksək şəkildə dəyərləndirən ziyalılarımızdandır. Onun, Ulu Öndərimiz Heydər Əliyevlə bağlı 2 kitabı -"Heydər Əliyev çörəyi" və "Heydər Əliyev okulu" adlı kitabları işıq üzü görüb. Həm də tükənməz yaradıcılıq potensialına malik olan Xanoğlan müəllim kitab və məqalələrinə görə "Qızıl Qələm" mükafatına layiq görülüb.

Bəli, Xanoğlan Şıxəliyev çox qısa ömür sürsə də, onun həyatını böyük bir məktəb kimi qiymətləndirmək olar. Baxmayaraq ki, o, oğul kimi ailəsinin tək övladı idi, buna rəğmən, elə uşaq vaxtlarından ömrünün sonunadək ailənin yükünü öz çiyinlərində daşımağı bacarmış bir AZƏRBAYCAN ƏRƏNİYDİ! Bu gün də onu xatırlayanlar, ruhunu əziz tutanlar atasının həmişə onunla fəxr etdiyini deyirlər.

Bu gün onun övladları da haqqında danışarkən, vurğulayırlar ki, ata olmaqla yanaşı, Xanoğlan müəllim həm də yaxın dost, sirdaş, yoldaş olub. Onunla həmsöhbət olmaq insana, sadəcə, xoş duyğular bəxş edirdi. Çünki o, yüksək fəlsəfi mədəniyyətə, bənzərsiz dünyagörüşünə malik idi. Onun fikir və düşüncələri, əvəzsiz nəsihətləri bu gün də xatırlanır - "yaxşılığı unutmaq olmaz", "hər yamanlığa yaxşılıq et ki, sonda Allah tərəfindən mükafatını alasan"...

Yeri gəlmişkən, sentyabrın 29-da Xanoğlan Şıxəliyevin 60 illik xatirə yubileyi keçiriləcək və onun tarixdə buraxdığı silinməz izləri, həyat yolu, pak ruhu sevənləri və xatirəsini əziz tutan insanlar tərəfindən anılacaq. Çünki o, yalnız buna layiqdir!

Sonda isə Xanoğlan Şıxəliyevi yaxından tanımış bir insanın ona ithaf etdiyi bir gözəl şeiri də dəyərli oxucularımızın diqqətinə çatdırmaq istərdim. Jurnalistlik fəaliyyətində kifayət qədər imzası olan Hüsaməddin Əhmədov onun Ulu Öndər Heydər Əliyev barədə yazdığı kitabdan dəyərli sitat gətirərək yazır: "Azərbaycan xalqı Heydər Əliyevin çörəyini yeyir. Bu çörək bərəkətlidir, halaldır, zəhmət hesabına başa gəlib. Bu çörək müstəqil Azərbaycanın, daim inkişaf edən vətənimizin müqəddəs nemətidir..."

Allah İNSANLIQ və LƏYAQƏT məktəbi qurub, onu özündən sonrakı nəsillərinə bəxş edən Xanoğlan müəllimə rəhmət eləsin!

***Rövşən NURƏDDİNOĞLU***



# "Avrasiya təhsil müstəvisində dil və mədəniyyət dialoqu" Konqresinin iştirakçıları BSU-da olublar

***Dünən Azərbaycandakı Rus İcması, Moskva Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və AMEA-nın təşkilatçılığı ilə "Avrasiya təhsil müstəvisində dil və mədəniyyət dialoqu" adlı Beynəlxalq Konqres öz işinə başlayıb.***

Moskva Dövlət Pedaqoji Universitetinin xalqlararası və regionlararası siyasət üzrə prorektoru Lyudmila Dudova, Moldova Respublikası Slavyan Universitetinin rektoru Tatyana Mleçko, Bolqarıstan Respublikası Təhsil və Elm Nazirliyinin rus dili üzrə baş eksperti Stoyanka Poçekanska, Rusiya-Tacikistan Universitetinin filologiya fakültəsinin dekanı Rüstəm Səlimov, Şimali Osetiya Dövlət Pedaqoji İnstitutunun rektoru Lyudmila Kuçiyeva, Moldova Dövlət Pedaqoji Universitetinin rus dilinin tədrisi metodikası kafedrasının professoru Vladislav Yançenko, Qırğızıstan Respublikası Slavyan Universitetinin rus dili kafedrasının professoru Mamed Taqayev və digər şəxslər konqres iştirakçıları sırasında BSU-da də olublar. Qonaqları BSU-nun milli geyimli tələbələri duz-çörək və şərbətlə qarşılayıblar. Konqres iştirakçılarını qəbul edən BSU-nun rektoru, professor Nurlana Əliyeva onlara universitetin tarixi, xarici əlaqələri, burada fəaliyyət göstərən tədris mərkəzləri və s. barədə müfəssəl məlumat verib. Sonra qonaqlar unuiversitetin Rusiya Tədris-Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən Moskva və Sankt-Peterburq auditoriyaları ilə tanış olublar. Mərkəzin direktoru, dosent Gülnarə Novruzova mərkəzin fəaliyyəti, buradakı kitabxana barədə qonaqlara ətraflı məlumat verib. Bundan sonra qonaqlar BSU-nun akt zalında "Arzu" rəqs ansambılının təqdimatında müxtəlif rəqslərə tamaşa ediblər.

Təqdimatın ardınca konqres iştirakçıları auditoriyalarda rus dilinin tədrisi prosesini müşahidə edib, tələbələrə öz tövsiyə və məsləhətlərini veriblər.

Görüşün sonunda universitetin konfrans zalında Moldova Respublikası Slavyan Universitetinin rektoru Tatyana Mleçko ilə BSU-nun rektoru, professor Nurlana Əliyeva arasında əməkdaşlıq barədə müqavilə imzalanıb. Müqavilədə universitetlər arasında tələbə-müəllim mübadiləsi, elmi məcmuələrin birgə nəşri və digər məsələlər öz əksini tapıb. Sonda çıxış edən professor N.Əliyeva Moldova Respublikası Slavyan Universiteti ilə BSU-nun əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə və bu əməkdaşlığın hər iki tərəf üçün səmərəli olacağına inandığını bildirib.

Tədbir çərçivəsində qonaqlardan ibarət bir qrup nümayəndə heyəti BSU-nun nəzdindəki Məktəb-Lisey Kompleksində şagirdlər üçün keçirilən açıq dərslərdə iştirak edib.

***ZÜMRÜD***

# Sentyabrın 28-dək ölkə üzrə 46 min 194 ton pambıq tədarük olunub



Sentyabrın 28-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 46 min 194,74 ton məhsul təhvil verilib. AZƏRTAC xəbər verir ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən bir gündə 4 min 331,12 ton pambıq yığılıb. Məhsul yığımında Saatlı rayonu öndə gedir. Rayon pambıqçıları indiyədək 9 min 78,40 ton məhsul təhvil veriblər. İlk beşliyə Biləsuvar (5425,67 ton), Sabirabad (5211,99 ton), Beyləqan (3382,56 ton), Ağcabədi (3357,14 ton) rayonları daxildir. Dövlət Statistika Komitəsinin pambıq tədarükünə dair operativ məlumatı ilə daha ətraflı buradan tanış ola bilərsiniz.

# "Elektrik enerjisi təminatında heç bir problem gözlənilmir"

***"Artıq bir müddətdir ki, enerji müəssisələrinin payız-qış mövsümünə hazırlıq işlərinə başlanılıb. Bu məsələ noyabr ayında "Azərenerji" ASC-nin xüsusi komissiyası tərəfindən qiymətləndiriləcək və komissiyanın qərarı əsasında enerji müəssisələrinə "Qışa hazırlıq pasportu" veriləcək".***

Bunu açıqlamasında "Azərenerji"nin ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin rəhbəri Yəhya Babanlı deyib. Y.Babanlının sözlərinə görə, fəsilə uyğun vacib tədbirlər həyata keçirilib: "Bütün bunlara baxmayaraq, hər hansısa bir sahədə təbii və texnogen qəzaların baş verməsindən birmənalı şəkildə sığortalanmaq çətindir. Havaların dəyişməsini normal qəbul etmək lazımdır. Əsas odur ki, hər bir fəsilə uyğun tədbirlər qabaqcadan görülsün. "Azərenerji" sistemi üzrə lazımi mövsümi hazırlıq işlərini həyata keçirmişik və operativlik səviyyəsini artırmışıq. İstər canlı, istərsə də texniki qüvvə ehtiyatımız kifayət qədərdir".

"Enerji sistemində keyfiyyətcə yeni mərhələnin başlanılması, bu sahədə innovativ texnologiyaların tətbiqi, sistemin səmərəliliyinin yüksəldilməsi, elektrik enerjisi istehsalı, ötürülməsi və idarə olunması üzrə maddi-texniki bazanın müasirləşdirilməsi işləri deməyə əsas verir ki, əvvəlki dövrlərlə müqayisədə istənilən hava şəraitinə qarşı dayanıqlılıq möhkəmləndirilib və təhlükəsizlik gücləndirilib. Əminliklə bildirirəm ki, "Azərenerji" tərəfindən elektrik enerjisinin təminatında heç bir problem gözlənilmir", - deyə şirkət rəsmisi vurğulayıb.

SİYASİ RAKURS

# Müxalifətin seçki oyunbazlıqları

*Yaxud "fəallaşma" görüntüsünün pərdəarxası məqamları*



***Bütün post-seçki və seçki dövrlərində Azərbaycanı istəməyən xarici qüvvələrlə yanaşı, Azərbaycanın daxilində həmin qüvvələrə xidmət edən, Azərbaycan xalqının maraqlarının və dövlətçiliyinin əleyhinə çıxış edən insanlar da öz simalarını Azərbaycan cəmiyyətinə göstərməkdədirlər.***

Xüsusilə ənənəvi müxalifət düşərgəsində "mənəm-mənəm" prinsipi əsasında "ana müxalifət" partiyası olduqlarını zorla ictimai rəyə sırımağa çalışan "liderlər" və onların təsis etdikləri qondarma, azömürlü qurumlar bu və ya digər şəkildə "fəal" olduqlarını nümayiş etdirməklə, əslində, siyasi deyil, şəxsi dividend güdməklə məşğul olurlar. Diqqət yetirsək görərik ki, məhz seçkilər ərəfəsində onlarla əlbir olub kirli maliyyə qazanan tərəflər müxtəlif "hesabatlar" hazırlayıb, bunu öz xeyirlərinə yazmağa cəhdlər göstərirlər. Lakin bu "hesabatların" heç biri nə sübutunu tapır, nə də xalqda maraq doğurur.

Söz yox ki, həmin daxili və xarici qüvvələr zaman-zaman Azərbaycanda təxribatlar törətmək, sabitliyi pozmaq üçün ən alçaq və rəzil yollara əl atırlar. Halbuki buna müvəffəq ola bilməyən tərəflər növbəti seçki mühitini gözləyir və yenidən yağışdan sonra çıxmış göbələklər tipində ictimai rəyə sırınmağa çalışırlar.

Lakin sonradan biz tamamilə fərqli bir görüntünün şahidi oluruq. Həmin qurumlardan baş verən istefalar öz yerində, eləcə də, istefa verən şəxslər bir-birilərinin paxırlarını açıb-qoyurlar ortaya. Çünki gec də olsa, ziyanın yarısından geri dönməyi doğru hesab edənlər, zamanında nə qədər səhv yolda olduqlarının fərqinə varırlar. Ancaq təəssüf ki, bu reallıqları görməzlikdən gələn "liderlər" hələ də, siyasətdə hansısa uğura imza atacaqlarını xəyal edirlər. Misal üçün, biz buraya "Milli Şura" adlı ölü qurumun fəaliyyətini əlavə edə bilərik. Çünki biz nə prezident, nə də parlament seçkilərində bu ölü qurumun seçki prosesi ilə, ümumiyyətlə, məşğul olmadığını gördük. Yalnız boş-boş bəyanatlar və heç kimə lazım olmayan toplantılar...

**Ötən şənbə "Milli Şura"nın keçirdiyi azsaylı, rüsvayçı mitinq və orada "liderlərin" səsləndirdikləri fikirlər normal düşüncəli insanların hər birində istehza doğurmuş oldu.**

Eyni zamanda həmin qurumda özlərini "lider" hesab edən uğursuz Əli Kərimli-Cəmil Həsənli cütlüyü, sadəcə olaraq, ayrı-ayrı dövlətlərə, ayrı-ayrı beynəlxalq təşkilatlara, erməni lobbisi tərəfindən maraqlandırılan qüvvələrə Azərbaycandakı seçki prosesi haqqında mənfi informasiya verməyə çalışıblar. O da bəlli idi ki, onlar hansı mərkəzlərdən qidalanırlar və hansı mərkəzlərin tapşırığını həyata keçirirlər.

İndi də eyni hal yenidən təkrarlanır. Belə ki, ötən şənbə "Milli Şura"nın keçirdiyi azsaylı, rüsvayçı mitinq və orada "liderlərin" səsləndirdikləri fikirlər normal düşüncəli insanların hər birində istehza doğurmuş oldu. Əbəs yerə deyil ki, Əli Kərimlinin, Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, İbrahim İbrahimlinin dedikləri hər bir söz, bilavasitə Azərbaycan dövlətçilik maraqlarının əleyhinə olduğu üçün birbaşa və dərhal erməni mediasında işıqlandırıldı. Məhz bunun özü sübut edir ki, onlar erməni ilə qardaşlıq edib, onların qucaqlarına atılıb, xalq, dövlət maraqlarını satmaqla məşğul olan satqınlar toplumudurlar.

### Bu, artıq bir ənənəyə çevrilmiş gerçəklikdir

Bu arada Prezident İlham Əliyevin bənzər xəyanətkarlar haqqında irəli sürdüyü fikirlərini bir daha xatırlatmaq yerinə düşərdi. Ölkə başçımız qeyd edib ki, Azərbaycanın daxili vəziyyəti çox sabitdir və sabitlik qorunur. Belə ki, sabitliyi qoruyan əsas şərtlər xalqla iqtidar arasındakı birlikdir, xalqın görülən işlərə dəstəyidir, inamıdır: "...Budur sabitliyi şərtləndirən əsas amil. Xaricdən olan bəzi təzyiqlər, görürsünüz ki, heç bir səmərə vermir. Bəzi satılmış müxalifət qruplarının fəaliyyəti də səmərəsiz nəticələnir".

Beləliklə, bir daha sübut olunur ki, yenidən "fəallaşdıqlarını" göstərməyə çalışan "liderlər" növbəti seçkilərdə də rüsvay və rəzil duruma düşərək, özlərini biabır edəcəklər. Bu, artıq bir ənənəyə çevrilmiş gerçəklikdir.

**Rövşən RƏSULOV**

# Mais Səfərli: "Özlərini lider adlandıranlar artıq qocalmış, saçı-saqqalı ağarmış tüfeylilərə bənzəyirlər"

***Siyasi fəaliyyətləri dövründə cüzi də olsa uğur əldə edə bilməyən müxalifətin dağıdıcı qanadı müxtəlif pozucu bəyanatlar səsləndirmək və müəyyən mini-aksiyalar keçirməklə, diqqəti özlərinə cəlb etməyə çalışırlar.***

Gözləmək olardı ki, rüsvayçılıqla nəticələnən 23 sentyabr mitinqindən sonra "Milli Şura" rəhbərliyi fəaliyyətlərini bir müddət donduracaq, mətbuatla əlaqələrini kəsəcəklər. Amma müstəqil olmadıqlarından, əsas variantları deyil, xarici maraqlı qüvvələrin istək və tapşırıqlarına əsaslanan yolu seçməli olublar. Yəni növbəti dəfə mitinq keçirmək istəyi ilə çıxışlar edirlər.

"Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifət düşərgəsini təmsil edən bu şəxslər diqqəti özlərinə cəlb etmək üçün növbəti bir mitinq keçirilməsini istəyirlər: "Radikal müxalifət ictimai dəstəkdən məhrumdur. Bu cür mənasız mitinqlər keçirməklə xarici havadarlarına yarınmağa çalışırlar. Bu gün müxalifət düşərgəsində özlərini lider adlandıranlar artıq qocalmış, saçı-saqqalı ağarmış tüfeylilərə bənzəyirlər. Demək olar ki, müxalifət partiya sədrləri özlərini işə vermir və başqa bir işin qulpundan yapışmağı da istəmirlər. Bir sözlə, asan işlə məşğul olmaq istəyirlər. Buna görə də, öz kreslolarını tək etmək istəmirlər. Sanki bu, onların bir biznesidir. Radikal müxalifət partiya sədrləri özləri üçün oturublar öz kreslolarında rahat, heç bir məsuliyyət də daşımırlar, sadəcə olaraq, boş-boş bəyanatlar verməklə kifayətlənirlər. Bəlli məsələdir ki, onlar maliyyəsiz yaşaya bilməzlər, axı bunlara müəyyən maliyyə qaynaqları lazımdır. Bu maliyyə vəsaitini əldə etmək üçün də xaricdə olan havadarlarının diqqətini özlərinə cəlb etmək istəyirlər. Görün neçə illərdir ki, radikal müxalifət düşərgəsini təmsil edən bu şəxslər mitinqlər keçirir və hər dəfə də mitinqləri uğursuzluğa düçar olur".



" Müsavat partiyası da mitinq keçirəcəyini bəyan edib. Bu, bir növ Müsavatla "Milli Şura" arasında mitinq keçirilməsində bir rəqabət yarandığı anlamı yaratmır ki" sualına cavab olaraq, partiya sədri bildirdi ki, "Milli Şura" deyilən qurum, əslində, elə AXCP-dir. Yəni "Milli Şura" AXCP-dən ibarətdir: "Hər kəsə məlumdur ki, hər zaman Müsavat partiyası ilə AXCP arasında rəqabət olub. Bir sözlə, AXCP ilə Müsavat bir-biri ilə yarışa girib. Belə ki, Müsavat da AXCP-dən geridə qalmamaq üçün mitinq keçirəcəyini bəyan edir. Əslində, onların keçirəcəyi aksiyaların effektinin bəri başdan nə olacağını cəmiyyət çox gözəl bilir. Müxalifət düşərgəsini təmsil edən bu qüvvələr, bu cür boş-boş aksiyalar keçirtməklə, bir daha özlərini gülünc vəziyyətə qoyurlar. Çünki hər kəs onların hansı gücə malik olduqlarını çox yaxşı bilir".

"Əvvəlki mitinqə müxalifət partiyaları belə dəstək vermədilər. Bu, Əli Kərimliyə, Cəmil Həsənliyə olan inamsızlığa bağlıdır, yoxsa başqa konkret səbəblər var" sualının cavabında M.Səfərli bildirdi ki, müxalifət cəmiyyətdə heç bir dəstəyi və dayaqları olmayan quruma çevrilib: "Müxalifətin uğursuzluğunun günahı partiya sədrlərinin özlərindədir. Bunlar səhv siyasət aparırlar. Bu gün müxalifət partiyalarının uğursuzluğa düçar olmalarının əsas səbəblərindən biri də həmin partiyalara başçılıq edən şəxslərin yanlış siyasət aparması və bir-birini qəbul etməməsi ilə bağlıdır. Çünki müxalifətçilər heç vaxt istəməzlər ki, kim isə özündən üstün olsun. Artıq bunların saçı-saqqalı ağarmış və cəmiyyətdə heç bir dayaqları olmayan partiya sədrləridirlər".

**GÜLYANƏ**

## Eyni ssenarinin 25 illik oyunçuları

*Və ya rüsvayçı tarixə söykənən acı həqiqətlər*

"Milli Şura"nın sentyabrın 23-də keçirdiyi mitinqin uğursuzluğu dağıdıcı müxalifət düşərgəsində də etiraf olunmaqdadır. Əli Kərimlinin pafoslu, yağlı vədlərinin puça çıxması, bir daha sübut elədi ki, bu adamlar illərdir eyni ssenari ilə özlərini və ətrafındakıları aldatmaqla məşğuldurlar. Heç şübhəsiz ki, uğursuz mitinqdən sonra Ə.Kərimlinin sərsəm "taktika"larının, daha çox daxili intriqalarla gündəmə gəlməyə çalışmasının, ermənipərəst mövqeyinin, anti-Azərbaycan ruhlu çıxışlarının ən xırda detalları da açıldı. Ən yaxın adamları da Ə.Kərimlini sərt şəkildə tənqid edərək, onun yersiz çağırışlarını və fikirlərini tənqid etdilər. Yüz minlərlə insanın "Məhsul" stadionuna yığışacağını vəd edən Ə.Kərimli başa düşə bilmir ki, bu stadion cəmi 20-25 min adam tutur! Yaxşı, bu, bir tərəfə qalsın, axı "Məhsul"un heç 20-25%-ni də doldura bilmədiniz. Saat 15:00-də başlamalı olan mitinqə Ə.Kərimli və C.Həsənlinin mühafizəçilərin qolları arasında saat 15:30-da gəlmələrinin anlamı nə idi? Çünki utanırdı, maşında oturub gözləyirdi ki, bəlkə bir az çox adam gələ. Ancaq bu da olmadı və AXCP sədri öz xislətinə sadiq qalıb tribunaya çıxdı. Yenə də eyni ssenari ilə Ə.Kərimlinin uğursuz mitinqi, verdiyi vədin puça çıxması, insanları müxtəlif vədlərlə aldatması elə müxalifət düşərgəsində də geniş etiraza səbəb oldu.

**Bu mitinq Müsavat-AXCP arasındakı düşmənçiliyi daha da dərinləşdirdi**

Təsadüfi deyil ki, "Milli Şura"nın bu mitinqindən sonra Müsavatla AXCP arasındakı düşmənçilik daha da dərinləşdi, eləcə də, "REAL" üzvləri sosial şəbəkələr vasitəsilə AXCP sədrinin riyakarlığını ifşa etməyə başlayıblar. Səbəb Ə.Kərimli və AXCP üzvlərinin mitinqdə iştirak etməyənləri təhqir etmələri olub.

Hüquqşünas Aslan İsmayılov deyilən təhqirlərə münasibət bildirərəkən söyləyib ki, müxalifət üzvlərinin bir-birilərinə qarşı yönəldilmiş təhqirləri ikrah hissi doğurur. A.İsmayılovun sözlərinə görə, guya məqsədləri eyni olanlar bir- birilərinin uğursuzluqlarını toy-bayram kimi qeyd edirdilər: "Bu yolda xəyanət, haqsızlıq və təhqir görənlər birinci səbəbi öz etdiklərində axtarsınlar. Hamı bilməlidir ki, intriqalarla, başqalarının uğursuzluqlarında, böhtan atmaqla, oyunbazlıqla bu günə qədər heç kim uğur qazanmayıb. Əminəm ki, bundan sonra da qazanmayacaq. 30 il eyni simaları müxalifətdə görürük. Azərbaycan balaca yerdir, nə baş verir, hamı bilir və görür. Siz mənə deyin: hansı müxalifət liderinin yanında parlaq bir sima var? Bu illər ərzində hansı müxalif partiyanın lideri dəyişib? Heç birində. Formal olaraq, dəyişmələri də görürük. Müxalifətin öz arasında olan mübarizə hakimiyyətə qarşı olan mübarizədən daha kəskin olub. AXCP, Müsavat, AMİP və ADP-nin öz aralarında olanı kənara qoysaq da, yeni yaranan siyasi təşkilatlara hücumları kimlər görmədi?! Bu xalq 25 il meydanda olanların hamısından, yumşaq desəm, yorulub, inanmır, bundan sonra da inanmayacaq və buna tam haqqı var. Ona görə ki, hamısı bu xalqı aldadıb, onun səmimiliyini öz şəxsi maraqları və ambisiyalarına qurban verib ".

Baxın, özünüz də öz böhtanınızdan, yalanınızdan bezmisiniz. Bəlkə səhvinizi anlayaraq, gedib yerinizdə oturasınız.

Gah mitinq, gah aclıq, gah da digər naftalin iyi verən etiraz tədbirləri ilə gündəmə düşmək istəyən dəyərsiz müxalifət ünsürləri, o cümlədən, Ə.Kərimli bu faktoru dərk edə bilməz.

Bax, budur Ə.Kərimlinin rüsvayçı tarixə söykənən iç üzü və xisləti.

**Rəfiqə HÜSEYNOVA**

# Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının svilizasiyası və mədəni dəyərləri haqqında

***Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının milli ənənələrini ölkəmizin dövlət müstəqilliyi və milli azadlığı ilə vəhdətə götürürdü: "Cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələri və prinsipləri əsasında tərbiyə etmək lazımdır".***

Ulu Öndərin fikrincə, Azərbaycanın milli-mənəvi ənənələri yüksək dəyərləri formalaşdıran bir sərvətdir: "Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir".

Ulu Öndər Azərbaycan xalqını yüksək mədəniyyətli, svilizasiyalı, qəhrəman, qüdrətli, dövlətçilik ənənələri olan bir xalq kimi dəyərləndirirdi: "Azərbaycan xalqı o qədər də aciz xalq deyil, onun qəhrəmanlıqla dolu keçmişi var. Əsrlər boyu başına gəlmiş bəlaların hamısından xalqımız öz gücü, cəsarəti, qəhrəmanlığı sayəsində çıxmışdır. Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin tarixi, böyük mədəniyyəti, özünəməxsus milli-mənəvi ənənələri var. Azərbaycan xalqı əsrlər boyu milli azadlıq uğrunda mübarizə edib, çarpışıb, bu arzularla yaşayıb. Özünün müstəqil dövlətinin olmasını və dövlət müstəqilliyi əldə etməsini istəyibdir".

Azərbaycan mədəniyyətinin ümumbəşəriliyin və milliliyin vəhdətindən ibarət olduğunu xüsusi qeyd edən Ulu Öndər deyirdi: "İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda, dünyəvi və sivilizasiyalı ölkədir. Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Xalqımız, həqiqətən, çox istedadlı xalqdır, xüsusən, ədəbiyyat, mədəniyyət sahəsində çox istedadlı xalqdır. Azərbaycan xalqını əzab-əziyyətdən, bəlalardan xilas etmək üçün birləşmək, bir yolla - haqq, ədalət yolu ilə getmək lazımdır! Əsas məqsədlərə, xalqımız üçün ali məqsədlərə nail olmaqdan ötrü hamı əl-ələ verməlidir".

Azərbaycan mədəniyyətinə yabançı ünsürlərin maddi təsirindən azərbaycançılıq vasitəsilə xilas olmağı göstərən Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı müdrik xalqdır. Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu azərbaycanlılığı anadangəlmə qəbul etmişik. Əsrlər boyu Azərbaycanın sərvətləri yabançı dövlətlər tərəfindən vəhşicəsinə, insafsızcasına dağıdılıb, Azərbaycan xalqına bu sərvətlərdən heç nə çatmayıb. Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz. Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz. Azərbaycan xalqının qüdrəti də var, imkanı da var. Azərbaycan xalqı öz tarixində çox ağır dövrlər yaşamışdır. Lakin bütün sınaqlardan çıxaraq mənliyini, xəlqliyini, azərbaycanlılığını, müsəlmanlığını itirməmişdir və heç vaxt da itirməyəcəkdir".

Azərbaycan xalqının, onun mədəniyyətinin dövlətçiliklə əlaqədar olduğunu, dövləti daxilində inkişaf etdiyini qeyd edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur. Azərbaycan Respublikası, Azərbaycan xalqı qəsbkarlıq etmir, başqa respublikanın, başqa xalqın, başqa dövlətin torpaqlarına göz dikmir, hücum etmir, yalnız müdafiə olunur. Azərbaycan xalqı öz torpaqlarını geri qaytarmalıdır, ərazi bütövlüyünü bərpa etməlidir. Xalqımız öz suverenliyini, öz müstəqilliyini qorumağa qadir xalqdır. Xalqdan heç kəs inciyə bilməz. Dünya miqyasında bir müstəqil dövlət kimi yaşamaq, beynəlxalq aləmdə layiqli yer tutmaq üçün Azərbaycan xalqı həm bugünkü potensialından səmərəli istifadə etməli, həm öz gələcəyi haqqında düşünməlidir. Azərbaycan xalqını əsrlər boyu yaşadan, bu günə qədər gətirib çıxaran onun gələcəyə həmişə nikbinliklə baxması olmuşdur. Azadlıq, müstəqillik ideyası bizim, xalqımızın ideyasıdır. Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir".

Azərbaycan xalqının, onun mədəniyyətinin ərazi bütövlüyü, suverenliyini, müstəqilliyini qoruması ilə sıx bağlı olduğunu göstərən Ulu Öndər Heydər Əliyev deyirdi: "Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Azərbaycan xalqının soykökü birdir. Azərbaycan xalqı öz torpağını qorumağa qadirdir. Azərbaycan xalqı həmişə güclü olub. Əsrlər boyu Azərbaycanın ağır günlərindən biri də bu olub ki, xalqın içərisində bir-birinə düşmən olan adamlar olub. Azərbaycan xalqı öz müstəqilliyini, öz torpaqlarını qorumağa qadirdir. Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoruyub-saxlamışdır. Öz müstəqilliyini möhkəmləndirmək və onu bu müstəqillikdən məhrum etmək üçün indən belə heç kimə imkan verməmək - Azərbaycan xalqının iradəsi belədir. Azərbaycanda əsrlərdən - əsrlərə keçmiş milli-mənəvi dəyərlərimiz möhkəmlənəcək, daha dərin kök salacaq, inkişaf edəcək və Azərbaycan xalqı dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacaqdır. Xalqımız sayıq olmalıdır, xalqımız bilməlidir ki, biz müstəqil dövlət kimi öz taleyimizin, öz dövlətimizin sahibiyik və özümüz-özümüzü qorumalıyıq, xalqımızı qorumalıyıq, cəmiyyətimizi qorumalıyıq. Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Azərbaycan xalqı öz mənliyini müdafiə etməyə qadirdir. Azərbaycan xalqı öz müstəqilliyini müdafiə etməyə qadirdir. Azərbaycan xalqı çoxəsirlik tarixində, öz həyat yolunda böyük qələbələr çalmış, yüksək zirvələrə qalxmış, dünya mədəniyyətini zənginləşdirmişdir. Azərbaycan xalqı daim müstəqil dövlət çərçivəsində yaşamalıdır, öz taleyinin sahibi olmalıdır və taleyini özü həll etməlidir".

> Azərbaycan mədəniyyətinin ümumbəşəriliyin və milliliyin vəhdətindən ibarət olduğunu xüsusi qeyd edən Ulu Öndər deyirdi: "İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi və sivilizasiyalı ölkədir. Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Xalqımız, həqiqətən, çox istedadlı xalqdır, xüsusən ədəbiyyat, mədəniyyət sahəsində çox istedadlı xalqdır.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 29 sentyabr

## Xristofor Kolumbun məktubunun surəti hərracda 751,5 min dollara satılıb



Xristofor Kolumbun Amerikanın kəşfi ilə əlaqədar yazdığı və illüstrasiyalarla müşayiət olunan məktubunun nadir surəti ABŞ-da keçirilən hərracda 751,5 min dollara satılıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Nyu-Yorkun "Bonhams" satış evinin mətbuat katibi Kim Sun Xinin sözlərinə görə bu, hərraca çıxarılan belə lotlardan əldə edilən rekord gəlirdir.

Həmin məktub İspaniya xəzinədarı Araqon Qabriel Sançesə ünvanlanıb və ispan dilindən latın dilinə tərcümə edilib. İllüstrasiyaların birində dəniz səyyahının özü təsvir olunub. Kolumb kəşf etdiyi adaların Atlantik okeanında deyil, Hind okeanında olduğunu zənn etdiyindən məktubda xarakterik səhv buraxıb. Satış evinin məlumatına əsasən, Xristofor Kolumbun bu məktubu 1493-cü ildə İspaniya, İtaliya, Fransa, İsveçrə və Niderlandda azı 12 dəfə, 1494-1497-ci illərdə isə daha 6 dəfə çap edilib. Son 80 ildə bütün dünyada cəmi dörd belə nümunə hərraca çıxarılıb. Xatırladaq ki, dəniz səyyahı Xristofor Kolumb 1492-ci il oktyabrın 12-də "Ninya" və "Pinta" karavellalarında, həmçinin üçdorlu "Santa-Mariya" gəmisində Baham adalarına çataraq avropalılar üçün Yeni Torpaqları kəşf etmişdi.

## İtaliyalı memar sahəsi 7,5 kvadratmetr olan mikro ev tikib

İtaliyalı memar Pentso Pyano öz çoxdankı arzusunu yerinə yetirərək sahəsi 7,5 kvadratmetr olan mikro ev tikib. AZƏRTAC İnfuture.ru saytına istinadla bildirir ki, memar evi yunan filosofu Diogenin şərəfinə adlandırıb.

Maraqlıdır ki, evin sahəsi həddən ziyadə kiçik olmasına (3 x 2,5 m) baxmayaraq, burada normal həyat üçün bütün lazımi şərait yaradılıb. Belə ki, mikro evdə qonaq otağı, həmçinin biotualet, duş, kiçik mətbəx qarnituru və soyuducu yerləşdirilib. Bir neçə ton çəkiyə malik evi çox asanlıqla yük maşınında başqa yerə aparmaq mümkündür.

## Dəriyə qulluq üçün bunlar vacibdir!

Bir sıra mütəxəssislər, soyuq hava səbəbindən dəri quruluğuna tutulan şəxslərin çox duş qəbul etməmələri mövzusunda xəbərdarlıq edib. Türkiyədə bu sahə ilə əlaqədar fəaliyyət göstərildiyi bildirilən doktor Dərviş bəyin sözlərinə görə dəri quruluğu olan xəstələrin, duşdan sonra nəmliyi itirmədən dəri üzərinə nəmləndirici sürtməsi lazımdır. Məlumatdan aydın olur ki, bədən nəmləndiricilərindən, duş yağlarından istifadə orqanizmə fayda verir. Həmçinin məlumatda bildirilir ki, su və sabunla həddindən artıq təmasda olmaq da düzgün deyil. Sürtünməsi çox olan geyimlər geyinmək məsləhət görülmür. Bəzən irsi xəstəliklər, dəri xəstəlikləri, sədəf kimi bəzi ekzemalar da dəri quruluğu üçün səbəb ola bilər.

Dəri quruluğunu artıran səbəblərdən uzaq olmağın və ya bunun qarşısının alınması üçün bir sıra köməkçi tədbirlərin görülməsi daha düzgün hesab olunur. Dəri quruluğunun ən çox xarici şərtlərə bağlı meydana gələn bir xəstəlik olduğu məlumatlarda öz əksini tapıb. Qliserinli sabunlardan istifadənin bu cür problemlər yaşayan şəxslərə zərərli olmadığı bildirilir.

## ELAN

"KNF İNVESTMENTS" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı bölgə şöbəsində 15.12.2004-cü il tarixdə, 0104-P86-41710 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, reyestrdən çıxarışı, VÖEN-şəhadətnaməsi, 15.04.2005-ci il tarixli nizamnaməyə əlavə dəyişiklik layihəsi və möhürü itdiyi üçün etibarsız sayılır.

## "Qarabağ" - "Roma" oyunu azarkeş sayına görə birinci olub



Çempionlar Liqasının qrup mərhələsində keçirilən "Qarabağ" - "Roma" matçı azarkeş sayına görə 2-ci turun bütün oyunlarını qabaqlayıb. SİA-nın məlumatına görə, Bakı Olimpiya Stadionunda keçirilən qarşılaşmanı 67200 nəfər izləyib. Bu görüş "Borussiya" - "Real" matçını da üstələyib. "Siqnal İduna Park"da keçirilən qarşılaşmada 65849 nəfər azarkeş olub. Üçüncü yerdə isə "Qarabağ"ın yer aldığı C qrupunda keçirilən "Atletiko" - "Çelsi" matçıdır. Madrid klubunun yeni istifadəyə verilmiş "Vando Metropolitano" stadionunda keçirilən görüşü 60643 azarkeş izləyib.



## Messi Puyola çatdı

"Barselona"nın futbolçusu Lionel Messi üçün Çempionlar Liqasında qrup mərhələsində "Sportinq"lə (Lissabon) oyun(1:0) əlamətdar olub. Klubun saytında yer alan xəbərə görə, argentinalı hücumçu bu görüşlə Kataloniya təmsilçisində 593-ci matçına çıxıb. Bunula da o, "Barsa" tarixində ən çox oyun keçirən üçüncü futbolçu Karles Puyola çatıb. Qeyd edək ki, bu göstəricidə ilk pillədə komandanın sabiq yarımmüdafiəçisi Xavi qərarlaşıb ( 767 oyun). Andres İnyesta 638 matçla 2-ci pillədədir.

## Ceymi Morrison: "Əsas məqsədimiz Bakıda keçirilən çempionatda birinci olmaqdır"



Bakı haqqında çox gözəl təəssüratım var. Yarışların təşkilatçıları idmançılar və məşqçilər üçün bütün mümkün şəraiti yaradıblar. Bu il ikinci dəfədir Bakıya məmnuniyyətlə gəlirəm. Biz Xorvatiya yığmasına 3:0 hesabı ilə qalib gəldik. Qarşıda bizi çətin oyunlar gözləyir. Hollandiya yığması Avropa çempionatında birinci olmağı qarşısına məqsəd qoyub. Bu fikirləri Niderland voleybol yığmasının baş məşqçisi Ceymi Morrison Avropa çempionatının qrup mərhələsinin üçüncü turunda Xorvatiya komandasına qalib gəldikdən sonra AZƏRTAC-a müsahibəsində söyləyib. Niderland yığması dörddəbir finala çıxıb. C.Morrison yarış barədə təəssüratını bölüşərək deyib: "Avropa çempionatında zəif komanda olmur. Xorvatiya yığması ilə oyundan əvvəl biz bir neçə gərgin görüş keçirdik. Elə bu oyun da çətin idi. Əvvəldə bir neçə səhvimiz oldu. Lakin komandamız özünü tez topladı və oyunu xeyrimizə başa vurduq. Habelə ikinci set çox maraqlı oldu. Uğurlarımız bizi sevindirir".



## Türkiyə voleybolçuları Avropa çempionatının dörddəbir finalında!

Sentyabrın 27-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsində üçüncü pley-off matçı oynanılıb. Milli Gimnastika Arenasında Türkiyə voleybolçuları Polşa yığmasını 3:1 hesabı ilə məğlub edərək dörddəbir finala yüksəliblər. Qardaş ölkənin voleybolçuları gərgin idman mübarizəsi şəraitində keçən oyunun birinci setini 25:22 hesabı ilə üstün başa vurublar. Türkiyə yığması rəqibin güclü müqavimətinə baxmayaraq, ikinci setdə də üstün olub - 27:25. Polşalı voleybolçular üçüncü setdə 25:18 hesabı ilə qalib gəliblər. Lakin oyunun dördüncü setində də qələbə qazanan (25:23) Türkiyə millisi ümumi hesabda 3:1 hesabı ilə qalib gələrək dörddəbir finala vəsiqəni təmin ediblər. Dörddəbir finalda Türkiyə voleybolçularının rəqibi Rusiya millisi olacaq. Həmin görüş sentyabrın 29-da saat 20:30-da başlayacaq.

## "Atletiko" və "Bavariya" uduzdu, "Bazel" darmadağına sevindi!

Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsində 2-ci turun oyunlarına yekun vurulub. C qrupunda mübarizə aparan "Qarabağ"ın rəqibləri "Atletiko" və "Çelsi" Madriddə üz-üzə gəlib. "Atletiko" hesabı açmağa müvəffəq olsa da, London təmsilçisi əzmkar qələbə qazana bilib.

B qrupunda keçiriləcək PSJ - "Bavariya" oyunu maraqla gözlənilirdi. Lakin Münhen təmsilçisi meydan sahiblərinə müqavimət göstərə bilməyib. D qrupunda "Yuventus" "Olimpiakos"u məğlub edib, "Sportinq" isə "Barselona"ya uduzub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500